# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 14 OKTYABR 2021-Cİ İL / № 38 (1256)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU


## Prezident İlham Əliyev İtaliyanın “La Repubblica” qəzetinə müsahibə verib



BAX SƏHİFƏ: 2

## AHİK İcraiyyə Komitəsinin iclası keçirilib

**Oktyabrın 13-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) İcraiyyə Komitəsinin onlayn formatda iclası keçirilib.**

AHİK sədri, millət vəkili Səttar Möhbalıyev iclasın gündəliyinə maliyyə vəsaitinin ayrılması barədə “Vətən müharibəsi əlillərinə kömək” İctimai Birliyinin və Azərbaycan Diasporuna Dəstək Fondunun müraciətləri, həmçinin 2022-ci ildə AHİK-in üzv təşkilatlarında hesabat-seçki kampaniyası, AHİK-in Məclisinin tərkibində qismən dəyişikliklər edilməsi və digər cari və təşkilati məsələlərin daxil edildiyi barədə məlumat verib.

**S.Möhbalıyev gündəlikdə duran məsələlərin müzakirəsinə keçməmişdən əvvəl günümüzün aktual məsələləri barədə danışdı. O, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı böyük rəşadət göstərərək azad etməsindən, uğurlu hərbi əməliyyatlardan, xalqımızın Ali Baş Komandanın ətrafında dəmir yumruq kimi birləşməsindən, şəhidlərimizin, qazilərimizin qəhrəmanlıqlarından bəhs edib. S.Möhbalıyev bildirib ki, bu gün işğaldan azad olunan Şərqi Zəngəzurda və Qarabağda sürətli abadlıq-quruculuq işləri aparılır və inanırıq ki, yaxın zamanlarda sakinlər öz doğma yurdlarına qayıdacaqlar. Onun sözlərinə görə, şəhid ailələri, qazilər, müharibə iştirakçıları hərtərəfli dövlət qayğısı ilə əhatə olunur və hər birimizin borcudur ki, onları həmişə diqqətdə saxlayaq, problemləri ilə maraqlanaq, lazım olan köməyi onlardan əsirgəməyək.**



BAX SƏHİFƏ: 3



## Səttar Möhbalıyev: “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı bölgənin və ümumilikdə respublikanın iqtisadiyyatına yeni güc qatacaq”

“Vətən müharibəsində müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun hər bir addımı qəhrəmanlıq dastanı idi. Onlar şərəfləri ilə ən böyük tarixi yazdılar, qanları, canları bahasına, heç nədən qorxmadan, çəkinmədən, ölümün gözünə dik baxaraq. Yarımçıq qalmış işi tamamladılar, qisası qiyamətə saxlamadılar. Gələcək nəsillərə vətənpərvərlik dərsi keçdilər, Vətənin nə olduğunu anlatdılar, dəmir yumruğa dönməyin zəruriliyini aşıladılar, gücün birlikdə olduğunu sübut etdilər. Vətən müharibəsinin digər qəhrəmanları onları böyüdən valideynlərdir ki, heç bir tərəddüd etmədən övladlarını Vətən üçün qürurla yola saldılar, buna bütün dünya şahidlik etdi, qalib kimi də qarşıladılar. Şəhid ata və analarının övladlarının tabutunu “Vətən sağ olsun” şüarı ilə qarşılaması tarixi yaddaşımızın ləyaqətli davamı idi ki, onlar bunu şərəflə yerinə yetirdilər. İnsan üçün ən ağır dərdi, övlad itkisinin, böyük ayrılığın ürəkləri göynədən kədərini Vətən sevgisinə qurban verdilər. Budur bizim xalqın müdrikliyi və şərəfi”.

BAX SƏHİFƏ: 3

## Xidmətləri unudulmur

*gənclərimizin vətənpərvərlik ruhunda formalaşmasında müəllimlərimizin rolu danılmazdır*

BAX SƏHİFƏ: 5



*“Əhalinin məşğulluğunun bərpası və artırılması üçün mübarizə”*

BAX SƏHİFƏ: 4



*Qara qızılın qiymət artımı faydalı və ziyanlı tərəfləri*

BAX SƏHİFƏ: 6

## “Təşəbbüslərimiz anlaşıqla qarşılanır”

BAX SƏHİFƏ: 4

## İsmayıllıda müəllimlərin peşə bayramı fərqli qeyd olundu

BAX SƏHİFƏ: 5

## Pandemiya ilə mübarizə sosial problemləri gücləndirdi

BAX SƏHİFƏ: 4

Sendika

*Ədalət prinsipi əsas götürüləndə...*

BAX SƏHİFƏ: 4

Beynəlxalq

**Bu tələblər səhiyyə və təhsil sahəsində irəliləyişi pozur**

BAX SƏHİFƏ: 7

İdman

*Cəmiyyətin samboçuları 5 medal qazanıblar*

BAX SƏHİFƏ: 8

## Paytaxt məktəblərində payız-qış mövsümünə hazırlıq tədbirlərinə başlanılıb

BAX SƏHİFƏ: 3

**“Dünya Azərbaycana bu gənclərin gözü ilə baxacaq”**



BAX SƏHİFƏ: 6

**Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan www.44days.info portalının təqdimatı olub**

BAX SƏHİFƏ: 6

## Koronavirus infeksiyasına 1265 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 1265 yoluxma faktı qeydə alınıb, 868 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 17 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 495 min 332 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 475 min 382 nəfər müalicə olunaraq sağalıb, 6 min 709 nəfər vəfat edib. Aktiv xəstə sayı 13 min 241 nəfərdir.

**Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 min 654, bu günə qədər isə ümumilikdə 4 milyon 979 min 535 test icra olunub.**

**Hüquq məsləhətxanası**



BAX SƏHİFƏ: 8

**Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!**

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

# Prezident İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib

**Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib. Müsahibənin tam mətnini təqdim edirik.**



**Prezident İlham Əliyev:** Sabahınız xeyir.

***Müxbir: Sabahınız xeyir, cənab Prezident, necəsiniz?***

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm, yaxşıyam. Sizi yenidən görməyimə şadam.

***- Mən də Sizi görməyimə şadam. Ermənistanla münaqişə mövzusundan başlamaq istəyirəm. Rusiyanın sülhməramlı vasitəçiliyindən razısınızmı?***

- Bəli, ümumilikdə biz bundan məmnunuq. Təqribən bir ildir ki, müharibə başa çatıb və Rusiya sülhməramlıları Azərbaycanda, bizim Qarabağ bölgəsində yerləşib. Bu müddət ərzində bəzi xırda insidentlər istisna olmaqla vəziyyət sabitdir və ümumən biz bundan razıyıq. Əlbəttə, həllini gözləyən müəyyən məsələlər qalmaqdadır. Xüsusən də, hazırda Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan ərazilərimizə səfər etmək üçün Azərbaycandan icazə almalı olan əcnəbilər məsələsi var. Qarabağa səfər edən dırnaqarası turistlərin sayı kəskin şəkildə azalsa da, bəzi əcnəbilər hələ də bizim ərazimizə, Rusiya sülhməramlılarının olduğu yerlərə qanunsuz daxil olurlar. Bu məsələ Rusiyanın səlahiyyətli orqanlarının, Müdafiə Nazirliyinin diqqətinə çatdırılıb ki, buna son qoyulsun. Bu və bəzi digər məsələlər öz həllini tapmalıdır. Ancaq hazırda biz onların fəaliyyətindən ümumilikdə razıyıq.

***- Aydındır. Bakı azad olunmuş ərazilərə sərmayə qoyacaqmı?***

- Biz artıq sərmayə yatırırıq. Azad edilmiş ərazilərlə bağlı xüsusi investisiya proqramı qəbul edilib. Cari il üçün nəzərdə tutulmuş məbləğ təqribən 1.3 milyard ABŞ dolları təşkil edir. Sərmayə qoyuluşu əsasən infrastruktur layihələrinədir. Bu ilin sonunadək sahəsi 10 min kvadratkilometrə bərabər olan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təminatı tam başa çatacaq.

**Hazırda biz avtomobil və dəmir yolları inşa edirik. Azad olunmuş ərazilərdə, Füzulidə yerləşən yeni hava limanı hazırdır. Artıq o, ilk təyyarələri qəbul edib. Biz onu səkkiz aya inşa etmişik. Daha iki hava limanının inşası davam edir. Bununla yanaşı, biz artıq yaşayış binalarının tikintisi layihələrinə başlamışıq. İki şəhərin Baş planı təsdiq edilib və işlərə start verilib. Yəni, biz işlərə çox fəal başlamışıq və planımız keçmiş məcburi köçkünlərin doğma evlərinə ən qısa zamanda qaytarılmasıdır.**

***- İtaliyanın yenidənqurma işlərinə cəlb edilməsi nəzərdə tutulurmu və ya İtaliya artıq bu işlərdə iştirak edirmi?***

- İtaliya bu işlərə cəlb edilən ilk ölkələrdəndir. İlk ölkə Türkiyədir, ikincisi isə İtaliyadır. Bu, təsadüfi deyil. Bu, bizim seçimimiz idi. Mən demişdim ki, biz Böyük Qayıdışla bağlı yenidənqurma layihələrinə yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Bir neçə italyan şirkəti artıq müxtəlif layihələrdə, o cümlədən Zəfər muzeylərinin, Memorial muzeylərin və İşğal muzeylərinin yaradılmasında iştirak edir. Artıq bir italyan şirkəti bir bölgənin enerji təminatı məsələsi ilə bağlı bizimlə müqavilə imzalayıb. Bundan əlavə, digər italyan şirkəti kənd təsərrüfatı məhsullarının istehsalına sərmayə yatırmağa başlayıb. Beləliklə, italyan şirkətlərinin Azərbaycanda fəaliyyəti alqışlanılır və bu yenidənqurma işlərində daha çox italyan şirkətləri olacaq.

***- Bildiyiniz kimi, Avropada qazın qiymətində ciddi artım var. Trans-Adriatik qaz kəmərinin qiymətin müəyyən dərəcədə aşağı səviyyədə saxlanılmasında rolu ola bilər. Həmin boru xətti ilə bağlı hansı yeni imkanlar var?***

- Biz əsasən diqqətimizi Cənub Qaz Dəhlizinin sonuncu hissəsi olan Trans-Adriatik boru xəttinin başa çatdırılmasına yönəltmişdik. Ötən ilin sonuncu günü - dekabrın 31-də ilk qaz Avropaya nəql edilməyə başlandı və İtaliya artıq Azərbaycandan qaz qəbul etməyə başladı. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizi İtaliya bazarını 8 milyard kubmetr və hətta bundan da artıq həcmdə qazla təmin edəcək. Yəni, bu iş artıq başa çatdırılıb. İndi isə biz gələcəyə baxmalıyıq, çünki biz yeni qaz yataqları kəşf etmişik. Bununla yanaşı, mövcud yataqlardan da daha çox qaz hasil etməyi planlaşdırırıq. Həmçinin xarici investorlarla bərabər yenilənən enerji mənbələrinə böyük sərmayə qoyuruq.

***- Gəlin, Əfqanıstan haqqında danışaq. Siz Taliban hökumətini tanımağa hazırsınızmı?***

**- Biz hazırda hər hansı bir addımın atılması mərhələsində deyilik. Azərbaycan bilavasitə Əfqanıstana yaxın coğrafiyada yerləşmir. Hesab edirəm ki, ilk olaraq, bu qərarı Əfqanıstanın qonşuları verməlidir. Biz heç vaxt nə siyasi, nə iqtisadi, nə də ki, nəqliyyat sahəsi baxımından Əfqanıstanla sıx bağlı olmamışıq. Bizim Əfqanıstanda mövcudluğumuz orada sülhməramlı əməliyyatlarda iştirakla məhdudlaşıb. Yeri gəlmişkən, Azərbaycan hərbçiləri Kabil hava limanını sonuncu tərk edənlər sırasında olublar. Hərbçilərimiz hava limanını orada baş verən partlayışdan bir gün əvvəl tərk ediblər. Yəni, biz missiyamızı sonuncu günədək ləyaqətlə və maksimum səmərəli dərəcədə icra edirdik. Hazırda Əfqanıstanda yeni hökumətin qurulması və xarici siyasət prioritetlərinin müəyyən edilməsi dövrüdür. Müsbət meyil, müsbət yanaşma və potensial əməkdaşlıq əlamətləri gördüyümüz halda biz, əlbəttə ki, adekvat şəkildə cavab verəcəyik. Azərbaycanın xarici siyasətinin başlıca prinsipi müstəqillikdir. Xarici siyasətimiz tamamilə hər hansı xarici hökmranlıqdan azaddır. İkincisi isə praqmatiklikdir. Biz mövqeyimizi məhz bunun əsasında formalaşdırırıq.**

***- Avropanın Cənubi Qafqazda daha geniş iştirakı müsbət hal ola bilərmi?***

- Hazırda bu məsələlər geniş şəkildə müzakirə edilir. Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişelin bu yay Azərbaycana səfəri zamanı biz Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının geniş gündəliyi ilə bağlı ətraflı müzakirələr apardıq. Əlbəttə, əməkdaşlığımızın enerji kimi ənənəvi sahələri var ki, buradakı nəhəng layihələrin icrasını yalnız alqışlamaq olar.

Bu gün Avropa İttifaqı bizim nəqliyyat potensialımıza böyük maraq göstərir və bu sahədə fəal iştirak edir. Çünki biz Azərbaycanı Avrasiyanın müasir infrastruktura və qonşularla şaxələndirilmiş kommunikasiya marşrutlarına malik mühüm nəqliyyat mərkəzinə çeviririk. Avropa İttifaqı bu prosesin bir hissəsi olmağı planlaşdırır. Biz, həmçinin Cənubi Qafqazda postmüharibə dövrünün inkişafında da Avropa İttifaqının rolunu müzakirə edirik.

***- İranla bağlı nələr baş verir?***

- Ümumilikdə? Yoxsa ikitərəfli münasibətlərimizi nəzərdə tutursunuz?

***- Bəli. Müəyyən narahatlıq, müəyyən problemlər var. Bununla bağlı nə etməyi planlaşdırırsınız? Belə başa düşürəm ki, Sizin İsrail ilə yaxın olmağınızdan onlar o qədər də məmnun deyillər. Belədirmi?***

- Bilirsiniz, bu, bəhanədir. Baş verənlərin səbəbi bizim bəzi digər ölkələrlə olan münasibətimiz deyil, çünki xarici siyasətimiz çox açıqdır, şəffafdır, sabit və dediyim kimi, müstəqildir. Heç bir digər ölkə Azərbaycanın qərarlarına təsir edə bilməz və ya buna çalışmalı deyil. Qərarlar burada - Bakıda Azərbaycanın milli maraqları əsasında mənim tərəfimdən verilir. Əgər kimsə süni bəhanədən istifadə etməyə çalışaraq Azərbaycanı digər ölkə ilə münasibətlərinin olmasında günahlandırıbsa, bu cəhdlər boş çıxıb. Bu, düzgün yol deyil və gətirib dalana çıxaracaq.

**Baş verənlərin səbəbi çox sadədir. Azərbaycan öz sərhədlərinə hörmətlə yanaşılmasını istəyir. Qarabağın azad edilməsindən sonra biz Ermənistanla öz sərhədimizə çıxdıq. Biz öz sərhədimizə gəlib, orada yerləşdik. Ermənistanın bəzi şəhərləri arasındakı yol Azərbaycanın ərazisindən keçir. Bu yoldan Qarabağa, bizim ərazimizə malların qeyri-qanuni daşınmasında istifadə olunduğunu görməyə başladıq. Bu, qəbuledilməzdir. Biz öz sərhədlərimizə hörmətlə yanaşılmasını tələb edirik. Biz hər hansı digər ölkənin sərhədini qeyri-qanuni olaraq pozmuruq. Beləliklə, mesajımız çox sadə idi - dayandırın bunu! Biz ictimaiyyətə açıqlamadan çox dostcasına bildirdik ki, bunu dayandırsınlar. Çünki bu, düzgün deyil. Biz həmin yollara nəzarət edirik və görürük ki, aldatmağın, "bunun baş vermədiyini" söyləməyin yeri yoxdur. Əfsuslar olsun ki, bu xəbərdarlığa adekvat cavab verilmədi. Sonra biz ikinci addımı atmalı olduq. Biz diplomatik nota hazırladıq, səfiri dəvət etdik və bunu ictimaiyyətə açıqladıq ki, bunu dayandıraq. Amma, əslində, bu, daha pis forma aldı, İrandan Qarabağa gedən yük maşınlarının sayı artdı. Bu addımı biz zərbə, bilərəkdən hörmətsizlik kimi saydıq. Sonra biz tamamilə qanuni hesab edilən başqa tədbirləri gördük və bu, qonşu ölkədə böyük qarışıqlığa, lazımsız hərəkətlərə səbəb oldu. Yersiz bəyanatlar verildi, hədələr edildi, sərhədimizə yaxın hərbi təlimlər keçirildi. Müəmmalı idi ki, ilk dəfə hərbi təlimlərin planlı tədbir olduğu deyildi. Sonra isə deyildi ki, bizə nəyi isə nümayiş etdirmək üçün edildi. Heç kəs öz iradəsini bizim üzərimizə qoya bilməz. Biz bütün ölkələrlə və ilk növbədə, qonşularımızla dost münasibətlərə malik olmaq istəyirik. Bir çox hallarda mən Azərbaycanın xarici siyasət prioritetləri haqqında danışanda, - əslində, bunların hamısı çap edilib, - demişəm ki, bizim prioritetimiz qonşu ölkələrlə münasibətlərdir. Səkkiz il ərzində işlədiyimiz əvvəlki İran hökuməti ilə biz münasibətlərimizi ən yüksək mümkün səviyyəyə qaldıra bildik. Mənim həmkarım cənab Həsən Ruhani ilə ondan artıq görüşüm olub. Bütün həmin görüşlər məhsuldar olub. Biz enerji, nəqliyyat, mədəni inkişaf, təhlükəsizlik sahələrində bir çox sazişləri imzalamışıq və icra etmişik. Münasibətlərimiz, əslində, dostluq və yaxşı qonşuluq rəmzinə çevrilmişdir. İranın yeni hökuməti, yeni Prezidenti seçiləndə biz nə etdik? Biz onun inauqurasiyasına parlament sədrinin və Baş nazirin müavininin rəhbərliyi ilə böyük nümayəndə heyətini göndərdik. Onlar mənim dostluq mesajımı birbaşa İran Prezidentinə çatdırdılar. Eyni zamanda, digər çatdırılan mesaj və mən bunu xüsusi olaraq əvvəlcə bildirdim, belə idi: "Xahiş edirik Qarabağda İran biznesmenləri tərəfindən aparılan qeyri-qanuni biznes fəaliyyətinə diqqət yetirin". Biz İran hökumətini ittiham etmək mövqeyində deyildik. Biz anladıq ki, bunu bəzi özəl şirkətlər edir. Lakin biz bunun dayandırılmasını xahiş etdik. Cavab olaraq nə baş verdiyini hər kəs görür. Nəticədə nəyə nail olduq? Bir daha söyləyim ki, heç bir yaxşı şey baş vermədi. Buna görə, biz, ilk növbədə, İsrailin azad olunmuş torpaqlara gətirilməsi ilə bağlı Azərbaycana yönələn bütün ittihamları rədd edirik. Bu, tamamilə cəfəngiyyatdır. Bu, sadəcə, Azərbaycanı qaralamaq məqsədilə daxili auditoriyaya yönəlmiş bəhanədir. Hər kəs gedib görə bilər ki, orada heç həyat yoxdur. Hər bir şey dağıdılıb. İkincisi isə biz digərlərinə etdiyimiz hörmətin özümüzə də olmasını tələb edirik.**

***- Sağ olun. Yalnız sonuncu sual. Üzr istəyirəm, "Pandora sənədləri"ni Sizdən soruşmaya bilmərəm. Bildiyiniz kimi, adınız orada çıxıb. Siz müdafiə olaraq "Pandora sənədləri" haqqında nə deyərdiniz?***

- Bilirsiniz, bu cür məsələlər məni çox illərdir müşayiət edir. Siyasi konyunkturadan asılı olaraq Qərbdə bəzi qüvvələr vaxtaşırı Azərbaycanı gözdən salmaq, onun mövqeyini zəiflətmək üçün bu cür iftiralardan və böhtanlardan istifadə etməyə çalışır. Aydındır ki, bu, jurnalist araşdırması deyil. Məlumdur ki, bunun arxasında kim dayanır. Aydındır ki, nəyə görə Azərbaycanın da adı çıxır. Mən başqaları haqqında bilmirəm. Ola bilsin, bəlkə onlar da elə bir şey ediblər ki, Qərbdə bəzi qüvvələrin xoşuna gəlməyib. Lakin Azərbaycana gəldikdə, əlbəttə ki, İkinci Qarabağ müharibəsində Qələbə bir çoxları üçün sürpriz oldu. Bu, onların xoşuna gəlmədi. Onlar Azərbaycanı zəif, asılı, işğal altında olan və hər zaman münaqişənin həlli üçün yardım istəyən ölkə kimi görmək istəyirlər. İndi isə bir halda ki, Azərbaycan bunu özü etdi və Ermənistanı məğlub etdi, Ermənistana sıx bağlılığı olan Qərbdəki həmin dairələr yenə böyük fəallığa keçiblər. Biz bunu gözləyirdik. Əslində, biz bilirdik ki, Azərbaycana qarşı yeni qarayaxma kampaniyası planlaşdırılır.

Mətləbə gəldikdə, bildirmək istərdim ki, mən on səkkiz ildir Prezidentəm. Mən bundan əvvəl sahibkar olmuşam, bizneslə məşğul olmuşam. Tərcümeyi-halım da məlumdur. Özü də uğurlu sahibkar olmuşam. Prezident seçiləndə mən kasıb insan deyildim. Prezident olduqdan sonra mən biznesdə birbaşa iştirakımı dayandırdım və biznesi öz ailəmə ötürdüm. Siz bəlkə məni başa düşərsiniz ki, bütün mirasını pişiklərə və itlərə qoyub gedən Qərbdəki digər insanlardan fərqli olaraq, İtaliya və Azərbaycanda biz ailə dəyərlərinə daha çox üstünlük veririk. Buna görə, mən bütün biznesimi uşaqlarıma ötürdüm. Onlar isə səylər göstərib biznesi davam etdirirlər. Onların əsasən Azərbaycanda sərmayələri var. Onların Azərbaycandan kənarda sərmayələri var. Onların bütün biznes fəaliyyəti şəffafdır və beynəlxalq səviyyədə auditdən keçir və heç kəs bunlara bir şeyin səhv olması iddiası ilə çıxış edə bilməz.

**Sənədlərdə nə yazılıbsa, səmimi desəm, mən onları oxumamışam. Mənə məlumat verildi və orada ola bilsin 5 faiz həqiqətdir. Qalanı isə yalandır. Amma bir daha bu haqda açıq söyləməyə qanuni haqqım var. Azərbaycanda sirr deyil ki, mənim qohumlarım və ailə üzvlərim biznesdə, xeyriyyəçilikdə və hazırda Qarabağda aparılan bir çox işlərdə iştirak edirlər. Məsələn, mənim yaratdığım Fond hazırda Qarabağda - Ağdamda, Şuşada və Zəngilanda bütün məscidlərin bərpasına sərmayə yatırır. Bu işlər Fondun pulu hesabına maliyyələşdirilir. Biz qaçqınlar üçün evlərin tikintisini maliyyələşdirmişik. Beş mindən çox ailə üçün bu işi görmüşük. Biz Azərbaycanda çox işlər görürük. Əlbəttə ki, bunlar Qərbdə bəzi insanların xoşuna gəlmir. Onlar bizi ittiham etmək istəyirlər. İstəyirlər ki, biz onlara tabe olaq. Bizi iradələrinə tabe etdirmək istəyirlər. Mən isə deyirəm: Yox! Mən Azərbaycanı, onun suverenliyini, müstəqilliyini, seçimini ömrümün sonuna qədər müdafiə edəcəyəm. Bütün həmin çirkin hekayələrin isə mənim və Azərbaycan xalqı üçün heç bir mənası yoxdur.**

***- Cənab Prezident, çox sağ olun. Ümid edirəm, Sizinlə bir gün Bakıda görüşəcəyəm.***

# AHİK İcraiyyə Komitəsinin iclası keçirilib




**Oktyabrın 13-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) İcraiyyə Komitəsinin onlayn formatda iclası keçirilib.**

AHİK sədri, millət vəkili Səttar Möhbalıyev iclasın gündəliyinə maliyyə vəsaitinin ayrılması barədə "Vətən müharibəsi əlillərinə kömək" İctimai Birliyinin və Azərbaycan Diasporuna Dəstək Fondunun müraciətləri, həmçinin 2022-ci ildə AHİK-in üzv təşkilatlarında hesabat-seçki kampaniyası, AHİK-in Məclisinin tərkibində qismən dəyişikliklər edilməsi və digər cari və təşkilati məsələlərin daxil edildiyi barədə məlumat verib.

**S.Möhbalıyev gündəlikdə duran məsələlərin müzakirəsinə keçməmişdən əvvəl günümüzün aktual məsələləri barədə danışdı. O, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı böyük rəşadət göstərərək azad etməsindən, uğurlu hərbi əməliyyatlardan, xalqımızın Ali Baş Komandanın ətrafında dəmir yumruq kimi birləşməsindən, şəhidlərimizin, qazilərimizin qəhrəmanlıqlarından bəhs edib. S.Möhbalıyev bildirib ki, bu gün işğaldan azad olunan Şərqi Zəngəzurda və Qarabağda sürətli abadlıq-quruculuq işləri aparılır və inanırıq ki, yaxın zamanlarda sakinlər öz doğma yurdlarına qayıdacaqlar. Onun sözlərinə görə, şəhid ailələri, qazilər, müharibə iştirakçıları hərtərəfli dövlət qayğısı ilə əhatə olunur və hər birimizin borcudur ki, onları həmişə diqqətdə saxlayaq, problemləri ilə maraqlanaq, lazım olan köməyi onlardan əsirgəməyək.**

Daha sonra gündəlikdə duran məsələlərin müzakirəsinə başlanıldı. "Vətən müharibəsi əlillərinə kömək" İctimai Birliyinə 25-ə yaxın şəhid ailəsinin iştirak etdiyi "Şəhid ailələrinin II maarifləndirici-tur aksiyası"nın davam etdirilməsi üçün 1 000 manat pul vəsaitinin köçürülməsi barədə qərar qəbul edildi.

**Azərbaycan Diasporuna Dəstək Fondunun müraciəti əsasında müzakirələr aparılıb. Bildirilib ki, ölkədə əldə olunan nailiyyətlərin dünyaya çatdırılması, dünya azərbaycanlılarının milli-mənəvi dəyərlərinin qorunması, xaricdə işləyən azərbaycanlıların milli və vətəndaş hüquqlarının müdafiəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi, soydaşlarımızın sosial-iqtisadi, ictimai-siyasi, mədəni-mənəvi problemlərinin həlli və bu sahədə sosial layihələrin reallaşdırılması istiqamətində Azərbaycan Diasporuna Dəstək Fondu mühüm işlər görür. Qeyd olunub ki, Fond Vətən müharibəsi nəticəsində şəhid ailələri və qazilərin sosial müdafiəsinə dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək məqsədilə "Yaşat" Fondu ilə birgə Yaşat Marafonu adlı kampaniya da keçirib, şəhid və qazilərimizə maddi dəstək göstərib. Gələcəkdə fondun fəaliyyətinin daha da uğurla davam etdirilməsi, səmərəliliyinin artırılması və genişləndirilməsi məqsədilə İcraiyyə Komitəsi Fondun hesabına 30 000 manat pul vəsaitinin köçürülməsi barədə qərar qəbul edib.**

AHİK-in Məclisinin tərkibində qismən dəyişikliklər edilməsi, həmkarlar ittifaqı təşkilatlarının bütün sahələrində COVID-19 infeksiyasının yaratdığı mövcud şəraitlə əlaqədar olaraq, hesabat-seçki yığıncaqlarının təxirə salınması və digər müzakirəyə çıxarılan məsələlər barədə müvafiq qərarlar qəbul olunub.

**Sonda AHİK sədri əmək münasibətlərinin tənzimlənməsi, işçilərin əmək hüquqlarının qorunması, onların sosial müdafiəsinin, asudə vaxtının təşkili, müəssisə rəhbərləri ilə işçilər arasında əmək münasibətlərinin normal məcrada qurulması, yarana biləcək ziddiyyətlərin aradan qaldırılması, işçilərin qanuni mənafelərinin qorunması istiqamətində fəal işin aparılması barədə üzv və tabe təşkilatlarına müvafiq tövsiyələr verib.**

# Səttar Möhbalıyev: *"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı bölgənin və ümumilikdə respublikanın iqtisadiyyatına yeni güc qatacaq"*



**"Vətən müharibəsində müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun hər bir addımı qəhrəmanlıq dastanı idi. Onlar şərəfləri ilə ən böyük tariximizi yazdılar, qanları, canları bahasına, heç nədən qorxmadan, çəkinmədən, ölümün gözünə dik baxaraq. Yarımçıq qalmış işi tamamladılar, qisası qiyamətə saxlamadılar. Gələcək nəsillərə vətənpərvərlik dərsi keçdilər, Vətənin nə olduğunu anlatdılar, dəmir yumruğa dönməyin zəruriliyini aşıladılar, gücün birlikdə olduğunu sübut etdilər. Vətən müharibəsinin digər qəhrəmanları onları böyüdən valideynlərdir ki, heç bir tərəddüd etmədən övladlarını Vətən üçün qürurla yola saldılar, buna bütün dünya şahidlik etdi, qalib kimi də qarşıladılar. Şəhid ata və analarının övladlarının tabutunu "Vətən sağ olsun!" şüarı ilə qarşılaması tarixi yaddaşımızın ləyaqətli davamı idi ki, onlar bunu şərəflə yerinə yetirdilər. İnsan üçün ən ağır dərdi, övlad itkisinin, böyük ayrılığın ürəkləri göynədən kədərini Vətən sevgisinə qurban verdilər. Budur bizim xalqın müdrikliyi və şərəfi".**

**Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.**

AHİK sədri bildirib ki, erməni vəhşiliyinin daha bir nümunəsi də Cəbrayıl rayonudur: "İşğal dövründə digər ərazilərimiz kimi, həmin ərazidə də, ümumiyyətlə, canlı varlığın yaşaması üçün zəruri olan hər şeyi məhv edilib, bütün təbiətə, canlı aləmə düşmən kəsiliblər. Bu gün baş verən proseslər isə kimin kim olduğunu ortaya qoyur. Dövlətimizin başçısı cənab İlham Əliyevin Cəbrayıla son səfərində orada aparılan quruculuq işləri, həyata keçirilən layihələrlə tanış olduq. Cəmi bir il ərzində bu qədər işi görmək dövlətimizin iqtisadi gücünü və ölkəmizin potensialını göstərir. Burada yaradılan və 200 hektar ərazini əhatə edəcək "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı rayonunun və ümumilikdə respublikanın iqtisadiyyatına yeni güc qatacaq, məşğulluğu yüksəldəcək, kənd təsərrüfatının inkişafına təkan verəcək, yerli istehsalı artıracaq. Görülən işlər bir daha göstərir ki, oraya qayıdacaq sakinlərin rahat yaşaması üçün bütün işlər davamlı şəkildə plana uyğun olaraq aparılır və yaxın zamanda onların xoşbəxt gələcəyi reallaşacaq. Biz bunu Cocuq Mərcanlının timsalında gördük".

Milli Məclisin deputatı qeyd edib ki, "Böyük qayıdış"ın əsası məhz Cəbrayılda qoyuldu: "2016-cı ilin Aprel döyüşlərindən sonra Cocuq Mərcanlı kəndinin ətrafındakı yüksəkliklər azad edildi. Sürətlə həyata keçirilən quruculuq işləri nəticəsində kənddə məktəb binası, uşaq bağçası, həkim məntəqəsi, digər zəruri sosial və infrastruktur obyektləri tikildi və yenidən orada həyat bərqərar oldu. Kənd bu gün öz möhtəşəmliyi ilə diqqət çəkir. Bu, onu göstərir ki, belə bir mənzərə ilə biz işğaldan azad edilmiş bütün ərazilərimizdə qarşılaşacağıq və "Böyük qayıdış"ın növbəti mərhələsinə qürurla şahidlik edəcəyik".

**AHİK sədri vurğulayıb ki, bu il oktyabrın 4-də Prezident İlham Əliyev Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşündə Ermənistan tərəfindən baş verə biləcək təxribatların nə ilə nəticələnəcəyini bir daha bəyan etdi: "Buna görə də Ermənistan ağılını başına yığmalı, xəbərdarlıqlara məhəl qoymalı, yaranmış yeni vəziyyəti dəyərləndirməli, Azərbaycanın təkliflərini qəbul etməlidir. İşğal siyasəti artıq dəfn edilib, Azərbaycanın da dəyişməz mövqeyi ortadadır. Azərbaycanın bölgəyə gətirdiyi yeni nəfəs, əvvəlki müsahibələrimdə dediyim kimi, dayanıqlı sülhə və ümumilikdə regionun hərtərəfli inkişafına hesablanıb. Ermənistanın bundan kənara çıxması onların özləri üçün yaxşı heç nə vəd etmir. İşğal siyasəti onları bütün layihələrdən kənarda qoydu. Neft-qaz kəmərləri, nəqliyyat xətləri, dəmir yolu - hamısı Ermənistandan yan keçdi. Bu gün onun acı nəticələrini yaşayırlar".**

# Seçimi ittifaq üzvləri etdi

**"Alco" Məhdud Məsuliyyətli Cəmiyyətin Sumqayıt Kimya Sənayesi Parkının rezidentində həmkarlar ittifaqı komitəsi təsis olunub. Almaniya və İtaliya texnologiyaları əsasında müxtəlif çeşiddə sürtkü yağları istehsal edən bu müəssisədə 100 nəfərdən çox işçi çalışır. Onların hazırladıqları məhsullar keyfiyyətinə görə dünya yağ bazarında xüsusi çəkiyə malikdir. MMC-nin baş direktoru Dunay Xasaylı bildirdi ki, tələbatı nəzərə alaraq baza yağlarının illik həcmini 27.000 tona, istifadə ediləcək aşqarların həcmini isə 3.000 tona çatdırmağı nəzərdə tutmuşuq.**

İstehsalın səmərəsi yüksəldikcə kollektivimizin sosial tələblərinə vəsait ayırmaları da artır. Həmkarlar ittifaqı təşkilatı təsis olunduqdan sonra inanırıq ki, rəhbərliklə kollektiv arasında münasibətlər daha da sıxlaşacaq, bir-birinə dəstəyimiz güclənəcək, son nəticədə istehsal imkanlarımız qat-qat çox olacaq.

**Baş direktor onu da qeyd etdi ki, kollektiv tam sərbəst, rəhbərlik tərəfindən heç bir müdaxilə, məsləhət olmadan Sofiya xanım Abbasovanı komitə sədri seçdi. Digər bir seçimləri isə Metal İşçiləri Həmkarlar İttifaqı Federasiyasının üzvlüyə qəbul edilməsi barədə qərar oldu. Hər iki seçimin uğurlu olacağına inanıram.**

Metal İşçiləri Həmkarlar İttifaqı Federasiyasının sədri Bəkir Yusifov müxbirimizə bildirdi ki, MMC-də yaradılmış yeni HİK-in bizim təşkilatın üzvlüyünə qəbul olunması barədə qərar qəbul etməsini fəaliyyətimizə göstərilən etimad kimi dəyərləndiririk.

**Mən sədr seçilmiş Sofiya Abbasovanı təbrik edib ona dedim ki, seçimdə yanılmamısınız. Federasiyamız son vaxtlar öz işini müasir tələblər səviyyəsində qurmaqdadır. "Yeni şərait, yeni münasibətlər" prinsipi əsasında yanaşmalar həyata keçiririk.**

**Bəkir müəllim yeni kollektivə uğurlar arzuladı.**

# Paytaxt məktəblərində payız-qış mövsümünə hazırlıq tədbirlərinə başlanılıb



**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrində payız-qış mövsümü ilə bağlı hazırlıq tədbirlərinə başlanılıb.**

BŞTİ-dən bildirilib ki, məktəb binalarının dam örtükləri, pəncərə şüşələri və giriş qapılarının vəziyyəti yoxlanılır, təminat resurslarından səmərəli istifadə edilməsi üçün tədbirlər görülür. BŞTİ tərəfindən təhsil müəssisələrinin rəhbərlərinə yanğından mühafizə qurğularının, su hovuzları və nasosların texniki cəhətdən daim işlək vəziyyətdə olması, tədris-istehsalat sahələrinin xüsusiyyətlərindən asılı olaraq işçi və şagirdlərin yanğına qarşı təhlükəsizlik texnikası qaydaları ilə vaxtaşırı təlimatlandırılması, bu məqsədlə məsul şəxslərin müəyyənləşdirilməsi və əməyin mühafizəsi ilə bağlı müvafiq tədbirlərin görülməsi məsələlərini təmin etmək tapşırılıb. Həmçinin qazanxanaların istismarı üzrə əməyin mühafizəsi baxımından lazımi təlimati tapşırıqlar verilir.

Qeyd edək ki, BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrindən 133-ü "Azəristilik" ASC tərəfindən mərkəzləşdirilmiş qaydada, 179-u fərdi qazanxana vasitəsilə, 7-si isə fərdi və mərkəzləşdirilmiş qaydada istiliklə təchiz edilir.

**Məktəblərin payız-qış mövsümünə hazırlıqları ilə bağlı məsələlər müntəzəm olaraq nəzarətdə saxlanılır. Yerlərdən daxil olmuş məlumatlar, keçirilən monitorinqlər əsasında müəyyənləşdirilən çatışmazlıqlar aidiyyəti qurumlara təqdim edilir.**

# Yeni kollektiv müqavilə imzalandı



**Oktyabrın 4-də "Holcim Azərbaycan" ASC-də keçirilən yığıncaq növbəti 2021-2023-cü illər üçün razılaşdırılmış kollektiv müqavilənin imzalanmasına həsr olunmuşdu. ASC-nin insan resursları şöbəsinin əməkdaşı Ələsgər Əkbərov iclasın məqsədi və məramı barədə məlumat verdi.**

Şirkətin baş direktoru Xalid Samaka çıxış edərək yeni kollektiv müqavilə barədə fikirlərini bildirdi. Dedi ki, hazırda kollektiv müqaviləyə əlavə olunacaq maddələrin zavodun əmək kollektivinin göstərilən dövr üçün hüquqlarının qorunmasında, mütərəqqi idealların istehsalatda tədbiqində böyük rolu olacaqdır.

Sonra o, kollektivdə Hİ-nın nüfuzundan, görülən işlərdən və keçirilən tədbirlərdən danışdı.

Əlavə etdi ki, əvvəllər çalışdığı ölkələrin heç birində Hİ-nin əmək kollektivinin qayğısına bu qədər yüksək səviyyədə qaldığını görməmişdi.

**"İnşaat-İş" Hİ-nin sədri Umud Hüseynov çıxış edərək zavoddakı şəraiti, rəhbərliklə Hİ arasında qarşılıqlı anlaşma münasibətlərini yüksək qiymətləndirdi. Dedi ki, yeni müqavilədə işçilərin xeyrinə güzəştlər təxminən 20 faiz artırılmışdır.**

Tədbirdə ASC-nin HİK sədri Mübariz Məmmədov və başqaları da çıxış edərək yeni kollektiv müqaviləyə münasibətlərini bildirdilər.

**Sonda kollektiv müqavilə əlavə olunmuş maddələrlə təsdiq edildi.**




# “Əhalinin məşğulluğunun bərpası və artırılması üçün mübarizə”

**Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi (MİHİRK) 7 Oktyabr -Ümumdünya Layiqli Əmək Günü münasibətilə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən irəli sürülmüş “Əhalinin məşğulluğunun bərpası və artırılması üçün mübarizə” mövzusunda onlayn seminar keçirib. Giriş sözü ilə çıxış edən Respublika Komitəsinin sədri Cəmilə Səttarova deyib ki, bu əlamətdar gün əksər ölkələrdə həmkarlar ittifaqları birlikləri tərəfindən qeyd olunur. Həmin aksiyalarda həmkarlar ittifaqları COVID-19 pandemiyasının işləyən insanların həyat səviyyəsinə göstərdiyi mənfi təsiri aradan qaldırmaq, iş yerlərində ayrı-seçkiliyə yol verməmək, əmək şəraitinin yaxşılaşdırılması, texniki təhlükəsizlik qaydalarına əməl olunması və sair mövzularda tərəfdaşlarına çağırışlar edirlər.**

**C.Səttarova bildirdi ki, biz pandemiya dövründə yaşayırıq. Koronavirus dünya iqtisadiyyatına qlobal miqyasda zərbələr vurdu. Ən inkişaf etmiş ölkələrdə belə, əhalinin gəlirlərini azaltdı, maddi halını aşağı saldı. Az-az dövlətlər oldu ki, pandemiyanın törədə biləcəyi fəsadları başlanğıcdan görə bildi və lazımi tədbirlər həyata keçirdi. Belə ölkələrdən biri də Azərbaycandır. Bu da bizə yaranmış vəziyyətdən ən az itkilərlə çıxmağa imkan verdi. Cəmilə xanım sözünü konkret faktlarla davam etdirdi: “Pandemiyanın təsirinə məruz qalmış əhalinin və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün təqribən 2,7 milyard ABŞ dolları həcmində sosial-iqtisadi paket təqdim edilib, məşğulluğa, sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 12 paket reallaşdırılıb.**

Dövlət sektorunda 910 min işçidən təxminən 80 faizi işə çıxmasa da, onların əməkhaqqı ödənilib, həmçinin 2 milyon vətəndaşa sosial təminat növləri üzrə ödənişlərin davamlılığı təmin edilib.

Aztəminatlı işsiz şəxslərə aylıq 190 manat birdəfəlik ödəmə proqramı icra edilib, 90 min ödənişli ictimai iş yeri açılıb, özünüməşğulluq proqramı çərçivəsində təxminən 12 min ailəyə kiçik təsərrüfatlarını qurmasına şərait yaradılıb, 85 min ailənin 350 mindən çox üzvü ünvanlı dövlət sosial yardımı ilə, 100 minədək aztəminatlı ailə ərzaq yardımı ilə, 20 minədək şəxs işsizlikdən sığorta ödənişi ilə əhatə olunub.

**AHİK və onun tabeliyində olan təşkilatların yaratdığı mobil qruplar bu dövr ərzində 98,507 aztəminatlı ailəyə 3,925,985 manat, 92 254 həmkarlar ittifaqı üzvünə 6 500 762 manat yardım göstərib.**

Ümumilikdə isə pandemiya dövründə bu məqsədlər üçün 13 314 318 manat vəsait xərclənib.

MİHİ Respublika Komitəsi tərəfindən COVID-19 pandemiyası dövründə 4659 aztəminatlı ailəyə ərzaq sovqatları alınaraq paylanılmışdır. 801 nəfər ittifaq üzvünə 57620 manat məbləğində maddi yardım göstərilmişdir.

*398 şəhid və qazi ailəsinə 121.921 manat ərzaq şəklində yardım verilmişdir.*

*Bu yardımlar mütəmadi olaraq təqdim edilir.*

*Pandemiya dövründə 5.489 ədəd əlcək, 7.329 ədəd tibb maskası və 5.883 ədəd spirt ittifaq üzvlərinin arasında paylanılmışdır.*

*Sadalanan tibbi ləvazimatların alınmasına 11.422 manat məbləğində vəsait xərclənmişdir.*

*Silahlı Qüvvələrə Yardım Fonduna Respublika Komitəsi tərəfindən 10.000 manat məbləğində vəsait köçürülmüşdür”.*

**“Postpandemiya dövründə dövlətimizin qarşısında duran əsas prioritetlər iqtisadi inkişafı, iqtisadi və maliyyə sabitliyini təmin etmək, sağlam və rəqabətqabiliyyətli insan kapitalını daha da artırmaq, dayanıqlı iş yerləri və iqtisadiyyatın yeni sahələrini yaratmaqdır”,- deyə C. Səttarova çıxışını bu sözlərlə yekunlaşdırmışdır.**

Respublika Komitəsinin Əməyin texniki müfəttişi Çingiz İbrahimov çıxış edərək sahə idarə və müəssisələrində çalışan işçilər üçün yaradılan iş şəraitindən, onların əməklərinin təhlükəsizliyi istiqamətində görülən işlərdən danışdı. Qeyd etdi ki, pandemiyanın tələblərinə uyğun olaraq işə çıxanların sayının məhdudlaşdırılmasına baxmayaraq, bütün işçilər dövlət tərəfindən tam əməkhaqqı ilə təmin edilmişdir.

Sahə müəssisələrində ixtisarlar aparılmamışdır. İşçilərin sağlam və təhlükəsiz iş şəraiti ilə təmin edilməsi hər zaman həmkarlar ittifaqlarının diqqət mərkəzində olmuşdur.

**Tədbirdə Respublika Komitəsinin əməyin mühafizəsi üzrə etimadlı həkimi Səriyə Quliyeva, Zaqatala Rayon Komitəsinin sədri Sona Qaziyeva, Biləsuvar Rayon Komitəsinin sədri Adil Əhmədov, Sabirabad Rayon Komitəsinin sədri Telman Əzimov, Ağdam Rayon Komitəsinin sədri Cahangir Talıbov, Gəncə Şəhər Komitəsinin sədri Sahib Axundov, Ucar Rayon Komitəsinin sədri Mirqələm Əliyev əhalinin məşğulluğunun bərpası və artırılması üçün mübarizə istiqamətində görülən tədbirlərdən, qarşıda duran məsələlərdən danışdılar.**

***Əsli TELMANQIZI***

# Pandemiya ilə mübarizə sosial problemləri gücləndirdi

**“Xidmət-İş” Həmkarlar İttifaqları Federasiyası oktyabrın 7-də “Ümumdünya Layiqli Əmək Günü” münasibətilə onlayn tədbir keçirmişdir. 19 nəfər Hİ komitə sədrinin və fəallarının qatıldığı tədbirdə Federasiyanın vitse-prezidenti Cəmaləddin İsmayılov məruzə ilə çıxış etmişdir. Demişdir ki, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının 2008-ci ildə elan etdiyi bu əlamətdar gün üzv ölkələrin hökumətlərinin, sahibkarlarının əməyin təhlükəsizliyinə, gəlirlərin ədalətli bölünməsinə işçilərin, onların ailə üzvlərinin sosial problemlərinin həllinə diqqətini yönəltmək məqsədi daşıyır.**




**Layiqli Əmək Günü mövcud vəziyyətə, dövrün tələblərinə uyğun olaraq hər il müxtəlif çağırışlarla qeyd edilir. Bu ilin şüarı “Məşğulluğun bərpası və genişlənməsi uğrunda mübarizə” adlanır. Soruşula bilər, niyə məhz bu şüar? Ona görə ki, bildiyiniz kimi, iki ildən artıqdır bəşəriyyətin bəlasına çevrilmiş COVID-19-la mübarizəyə böyük qüvvə və resurslar cəlb olunub. Bu da bir çox irihəcmli sosial layihələrin həyata keçirilməsini ya məhdudlaşdırıb, ya da dondurub. İş yerlərinin sürətlə sıradan çıxması işsizlər ordusunun sayını kəskin şəkildə artırıb. Məşğulluq ən aşağı həddə düşüb. Fəaliyyətini davam etdirən müəssisələrdə texniki təhlükəsizlik tədbirlərinə, iş şəraitinin yaxşılaşdırılmasına kifayət qədər vəsait ayırmaq imkanları hissediləcək dərəcədə azalıb.**

C.İsmayılov dedi, bütün bu və digər problemlərin aradan qaldırılmasında və ya azaldılmasında həmkarlar ittifaqının iştirakı olduqca vacibdir. Hökumətlərlə, işəgötürənlərlə danışıqlar aparılmalı, istehsalın bərpasına və inkişafına tərəfdaşlarla birlikdə səy göstərilməlidir.

**Müzakirədə “Azpetrol ltd” MMC-nin HİK sədri Sabir Məmmədov, Bakı Şəhər Hİ Komitəsinin təlimatçısı Aynurə Namazova, Federasiyanın baş texniki əmək müfəttişi Tofiq Hüseynov və başqaları çıxış edərək Ümumdünya Əmək Gününə hazırlıq prosesindən, ittifaq üzvlərinin əməyinin qorunması istiqamətində görülən işlərdən danışdılar.**

# Ədalət prinsipi əsas götürüləndə...




**Oktyabrın 7-də Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi “Ümumdünya Layiqli Əmək Günü”nü qeyd etdi.**

**“Azərsu” ASC-nin bir qrup işçisinin iştirakı ilə keçən tədbirdə Respublika Komitəsinin sədri Akif Məmmədov çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi milli inkişaf strategiyasında ölkə vətəndaşlarının layiqli həyat səviyyəsinin yüksəldilməsi məqsədlərinin və sosial ədalət prinsipinin əsas götürüldüyünü diqqətə çatdırdı. Dedi ki, bu prinsipləri rəhbər tutan həmkarlar ittifaqları səmərəli sosial dialoqu təmin etmişdir. Əməkçilərin mənafeləri naminə qərarlar qəbul etməyə, qanunverici və icraedici hakimiyyət orqanlarının işinə fəal təsir göstərməyə, inzibati özbaşınalıq cəhdlərinə qarşı operativ reaksiya verməyə, həmkarlar ittifaqları azadlıqlarının və əməkçilərin əsas hüquqlarının pozulması hallarına qarşı mübarizə aparmağa və möhkəm maddi və maliyyə bazasına malik olan həmkarlar ittifaqları modelinin qurmasına nail olmuşdur.**

**A.Məmmədov “Layiqli Əmək Günü”nün eyni zamanda dünya əməkçilərinin səmərəli iş və layiqli əməkhaqqı, iş yerində təhlükəsizliyin və ailə üzvlərinin sosial müdafiəsi, sosial inteqrasiya və gender bərabərliyi imkanlarının təmin edilməsi məqsədlərini də daşıdığını xüsusi vurğuladı.**

*Sonda tədbir iştirakçıları Fəxri Fərmanla təltif olundular, hər birinə nağd pul verildi.*

# “Təşəbbüslərimiz anlaşıqla qarşılanır”

**Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının “Ümumdünya Layiqli Əmək Günü”nü elan etməkdə əsas məqsədi səmərəli, təhlükəsiz iş, layiqli əməkhaqqı, qadın və kişilər arasında bərabər imkanlar uğrunda mübarizə aparmaq və onlara nail olmaqdır. İşçilərin və onların ailə üzvlərinin sosial müdafiəsi, şəxsi inkişaf üçün daha yaxşı imkanların təminatı, sosial inqeqrasiya kimi tələblər də bu çağırışda prioritet məsələlərdəndir. Bütün bunlar Azərbaycan dövlətinin iqtisadi və sosial siyasətində aparıcı elementlər kimi mühüm yer tutur.**

**İnsanların sağlamlığına, təhlükəsiz iş şəraitində çalışmasına, rifah halının yüksəlməsinə dair qanunlar, qərarlar, sərəncamlar da bunu təsdiq edir.**

Respublika Prezidenti cənab İlham Əliyev çıxışlarının birində deyib: “Bizim üçün prioritet məsələ, - mən bunu qeyd etmişəm, bir daha demək istəyirəm,- insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir”.



Biz layiqli əməyə belə diqqəti, ciddi yanaşmanı həmişə dəstəkləmiş və yüksək qiymətləndirmişik. Çünki həmkarlar ittifaqı olaraq bu məsələ birbaşa missiyamızın ayrılmaz tərkib hissəsidir.

**Dövlət başçısının işçi insanların sağlamlığına həssaslıqla yanaşması bütün strukturların, o cümlədən müəssisə rəhbərlərinin də bu sahəyə münasibətdə məsuliyyətini artırır. Xidmətimizdə olan müəssisələrin rəhbərliklərinin timsalında biz bunun şahidi oluruq. İşçilərin mənafeyinə xidmət edən təşəbbüslərimizi, təkliflərimizi tərəfdaşlarımız anlaşıqla qarşılayır. Buna misal olaraq deyə bilərəm ki, BHİK sahə müəssisələrində istehsalatlarda hər bir peşə, vəzifə üçün əməyin mühafizəsi üzrə təlimatlar tərtib etmişdi. Həmin təlimatlara baş mühəndis və onun şöbələrində baxılmış, bəyənilmiş və onlar yazılı şəkildə görünən yerdə xüsusi lövhələrdə asılmışdır. Əksər istehsalat sahələrində bu təlimatların aparılmasından ötrü xüsusi jurnallar açılmışdır.**

Baş mühəndisin təsdiq etdiyi daha bir sənəd “Əmək şəraitinin yaxşılaşdırılması və işçilərin sağlamlığının qorunmasına yönəlmiş tədbirlər planı” adlanır. Tədbirlər planının icrasının yoxlanılmasında həmkarlar ittifaqı komitələri də fəal iştirak edir. Nəticələr birlikdə müzakirəyə çıxarılır və qərarların vaxtında, dəqiq yerinə yetirilməsi nəzarətdə saxlanılır.

Zərərli sahələrdə çalışan qaz və elektrik qaynaqçıları və rəngsazlar mütəmadi olaraq attestasiyadan keçirilir. Elektrik avadanlıqlarının torpaqlanması hər il məcburi surətdə müəssisənin laboratoriyası tərəfindən təsdiq olunmuş qrafik üzrə yerinə yetirilir.

**Əksər ilk təşkilatlarımızla işəgötürənlər arasında bağlanmış kollektiv müqavilələrdə öz əksini tapmış önəmli maddələrdən biri də zərərli və təhlükəli sahələrdə çalışanların əlavə məzuniyyət və əməkhaqqı ilə təmin olunmasıdır. Zərərli əmək şəraitində işləyən işçilər ildə bir dəfə ərazidə yerləşən tibbi müəssisədə müayinədən keçirilirlər.**

Onlar qısaldılmış iş vaxtı ilə işləyirlər. Kollektiv müqavilələrin şərtinə uyğun olaraq əmək şəraiti, zərərli, ağır olan işlərdə çalışan işçilərə süd məhsulu verilir. Həmçinin qeyd etmək istərdim ki, Müdafiə Nazirliyinin tərkibində olan hərbi hissə və müəssisələrdə, Nazirliyin 190 saylı əmrinin tələblərinə müvafiq olaraq, işçilər xüsusi geyim, fərdi mühafizə vasitələri ilə təmin olunmuşlar.

Bu və digər təşəbbüslərimizin, işləyib reallaşdırdığımız tədbirlərin, eləcə də tərəfdaşlarımızın “istehsalın inkişafında işçilərin həlledici sima olduqları” prinsipini əsas götürmələrinin nəticəsidir ki, ittifaq üzvlərimiz arasında istehsalatda ölüm halları qeydə alınmayıb.

**Belə göstərici işimizi düzgün qurduğumuza təminat verir.**

**Abiyat AĞADADAŞOVA,**
***Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri***

# Şəhidlik zirvəsinin fatehləri

## *Söz verdiyi kimi, qələbədən sonra çox sevdiyi bayrağa bürünmüş halda kəndə qayıdır...*



**Qarabağın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan hərbçilərimizdən biri də Oğuz rayonunun Xaçmaz kənd sakini 29 yaşlı Rəvan Ömür oğlu Lətifovdur. 1991-ci il avqustun 26-da anadan olan Rəvan orta təhsilini Xaçmaz kənd V.İbrahimov adına tam orta məktəbdə, ali təhsilini isə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsilin təşkili və idarə olunması ixtisası üzrə alıb. Təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra 2012-ci ildə Naxçıvanın Şərur rayonunda yerləşən "N" saylı hərbi hissədə hərbi xidmət keçib. Hərbi xidməti başa vurduqdan sonra isə Ə.Abdulhüseyn adına Şirvan kənd tam orta məktəbində məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçı, daha sonra isə Oğuz rayonu Sincan kənd tam orta məktəbində təşkilatçı müavin vəzifələrində çalışmışdır.**

R.Lətifov sentyabrın 29-da Milli Ordu sıralarına qoşulmuşdur. Bir ay ərzində Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə təşkil edilən intensiv hərbi təlimlərdə iştirak etdikdən sonra müharibəyə yollanmışdır. Hətta o, döyüşdə ikən ailəsinə məktub da göndərib: "Müharibədə sonadək iştirak edəcəyəm, yüksəkliklərə bayrağımızı sancacağıq. Bu, sözlə ifadə ediləcək hisslər deyil". Bir də əlavə edib ki, onunla əlaqə saxlaya bilməsələr, narahat olmasınlar. Yalnız qələbədən sonra geri dönəcək.

Oktyabrın 29-da Tank əleyhinə batareyanın əsgəri vəzifəsində Füzuli rayonunun İkinci Mahmudlu kəndinin düşmən işğalından azad edilməsində iştirak etmişdir. Noyabrın 6-da Şuşa şəhərinin işğaldan azad olunması əməliyyatında fəal iştirak edərək döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv edərək fərqlənmişdir.

Elə həmin gün Rəvanın da iştirak etdiyi batareya Daşaltı-Şuşa istiqamətində hücuma keçir. Bu, onun son döyüşü olur. Bu istiqamətdə gedən qanlı döyüşlərdə Şəhidlik zirvəsinə ucalır. Onun vəfatından iki gün sonra hərbi əməliyyatların dayandırılması haqda razılaşma əldə edilir. Söz verdiyi kimi, qələbədən sonra çox sevdiyi bayrağa bürünmüş halda kəndə qayıdır. Noyabrın 14-də Xaçmaz kəndinin Şəhidlər xiyabanında torpağa tapşırılır.

Həyat yoldaşı Pünhan Lətifova deyir ki, Rəvan şagirdlərinin vətənpərvərlik ruhunda böyüməsi üçün əlindən gələni əsirgəməyib, Vətən uğrunda canından keçməklə şagirdlərinə nümunə olub: "Bir görsəydiz, şagirdləri müəllimlərini son mənzilə necə yola saldılar. Hər gün, demək olar ki, evimizə gəlirdilər. Rəvan həyatda olsa idi, yəqin ki, şagirdləri ilə fəxr edərdi, necə ki, indi şagirdləri Rəvanla fəxr edir. Hətta atası şəkər xəstəsidir, vəziyyəti ağır idi. Anası dedi ki, "oğlum, darıxma, nə vaxt məsləhət bilsələr, çağıracaqlar, onda gedərsən". Amma narahat idi, getmək istəyirdi. Nə atasının xəstəliyi, nə də 10 aylıq oğlum onu yolundan döndərə bilmədi".

**Pünhan xanım deyir ki, Rəvan hansı istiqamətdə döyüşdüyünü onlardan gizlədirmiş: "İki-üç gündən bir zəng vururdu, atasını, övladını, bizi soruşurdu. Deyirdi ki, narahatçılığa əsas yoxdur. Cəbhəyə yardım aparanların birindən Füzuli istiqamətində döyüşdüyündən xəbər tutduq. Sonra isə sorağı Şuşadan gəldi.**

Onlar sonuncu dəfə Rəvanla noyabrın 6-da əlaqə saxlaya biliblər. Yoldaşı deyir ki, hər zəngində elə əminliklə danışırdı ki, heç nədən narahat olmurduq. Ancaq bir müddətdən sonra Rəvanla əlaqə saxlamaq mümkün olmur. Ailə yalnız noyabrın 14-də onun şəhid olduğunu öyrənir.

Pünhan Lətifova da müəllimdir. Qonşu kənddən Rəvanın yaşadığı kəndə müəllim kimi işləməyə gəlib. Elə burda da tanış olub evləniblər: "Onun haqqında saatlarla danışa bilərəm. İndi fikirləşirəm ki, Rəvan seçilmişlərdən idi, belə xeyirxah, gülərüzlü, hamının dərdinə yanan insan yalnız şəhid ola bilərdi. Tək təsəllim oğlumdur. 10 aylıq olmasına baxmayaraq, sanki baş verənləri duyur. Rəvana da söz vermişəm: oğlumuzu onun kimi vətəninə, torpağına bağlı böyüdəcəyəm".

**Prezident İlham Əliyevin Sərəncamına əsasən, Rəvan Ömür oğlu Lətifov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

## Ürəyində böyük Vətən sevgisi yaşadan...



**Famil Ağaəhməd oğlu Əhmədzadə 23 sentyabr 1975-ci ildə Bakı şəhəri Xətai rayonunda anadan olub. Ailəsi İsmayıllıya köçdüyünə görə Famil 1982-ci ildə İsmayıllı şəhər 3 nömrəli tam orta məktəbin birinci sinfinə qəbul edilib. Famil orta təhsil illərində məktəbin savadlı, ictimai işlərdə fəal şagirdlərindən biri kimi tanınıb. 1992-ci ildə orta məktəbi əlaçı məzun kimi başa vurub.**

Famil orta məktəbi bitirdiyi il Azərbaycanda test üsulu ilə keçirilən ilk imtahanlarda uğurla iştirak edərək Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun (indiki Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) Politologiya ixtisasına qəbul olub. Akademiyanın sayılıb-seçilən tələbələrindən olan Famil 1997-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə başa vurub. O, hərbi kafedradan məzun olduğu üçün leytenant rütbəsi alıb.

**F.Əhmədzadə 1997-ci ildə məzunu olduğu İsmayıllı şəhər 3 nömrəli məktəb-liseydə tarix müəllimi kimi pedaqoji fəaliyyətə başlayıb. 1999-cu ilin əvvəllərində Naxçıvan Muxtar Respublikasına hərbi xidmətə yollanıb. Hərbi xidmətdən sonra yenidən doğma məktəbində pedaqoji fəaliyyətini davam etdirib, rayonda, eləcə də respublikada ən yaxşı müəllim kimi tanınıb. İstedadlı müəllimin yetirmələri orta məktəbi uğurla bitirərək yüksək balla tələbə adını qazanıblar. Onun bir müəllim kimi ən böyük arzusu Vətənə layiqli vətəndaşlar yetişdirmək olub.**

Famil 2020-ci ilin sentyabrın 27-də Vətən müharibəsi başlanan gün könüllü olaraq cəbhəyə yollanıb. Ürəyində böyük Vətən sevgisi yaşadan cəsur zabit, müəllim Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinin müdafiəsində müstəsna rol oynayıb. Oktyabr ayının 13-dən 14-nə keçən gecə Talış və Suqovuşanda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Nəşi noyabrın 3-də əvvəlcə yaşadığı evə, daha sonra İsmayıllı rayonu Şəhidlər xiyabanına gətirilərək şəhər sakinlərinin izdihamlı yürüşü ilə dəfn edilib.

**Prezident İlham Əliyevin Sərəncamı ilə Famil Ağaəhməd oğlu Əhmədzadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

**Aliyə SƏMƏDOVA**

# Peşə bayramı fərqli qeyd olundu



**Müqəddəs peşə bayramı olan 5 Oktyabr-Beynəlxalq Müəllimlər Günü bu il İsmayıllı rayonunda fərqli şəkildə qeyd edildi. 44 günlük Vətən müharibəsində iştirak etmiş rayonun 20 nəfər təhsil işçisi, övladları şəhid olmuş müəllimlər- Şakir Müseyibov, Taleh Nəcəfov, Hamlet Əliyev, Balamirzə Mürsəlov, Əhmədzadə Ağaəhməd tədbirə xüsusi hörmətlə dəvət olunmuşdur. Bundan əlavə, məzunları 600-dən yuxarı bal toplayan 10 məktəb rəhbəri və digər 15 müsabiqə qalibinin iştirakı ilə, pandemiya qaydalarına əməl edilməklə, rayonun Uşaq Yaradıcılıq Mərkəzində bayram tədbiri keçirildi.**

Tədbirdə iştirak edən Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov rayonun təhsil işçilərini peşə bayramı münasibətilə təbrik etdi. O, Vətən müharibəsi dövründə rayonun təhsil işçilərinin həm döyüş meydanında, həm də arxa cəbhədə fədakarlıq göstərdiklərini, dəfələrlə rayonun təhsil işçilərinin təşəbbüsü ilə ön cəbhəyə yardımların edildiyini, döyüş meydanında müəllimlərin fədakarlıq göstərdiyini qürurla qeyd elədi. Suqovuşan kəndinin azad olunmasında fədakarlıq göstərən, şəhid olmuş şəhər 3 nömrəli məktəb-liseyin tarix müəllimi Famil Əhmədzadənin qəhrəmanlığından danışıb, onun atası müəllim Ağaəhməd Əhmədzadəyə bir daha təşəkkür etdi və səbir dilədi. Şəhid Famil müəllimin ailəsinə hər ay Respublika Komitəsi tərəfindən təqaüd kəsilməsinə görə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevə minnətdarlığını bildirdi.

Tədbirdə iştirak edən rayonun hərbi komissarı döyüşdə iştirak edən müəllimləri diplomlarla təltif etdi.

**Şəhid valideynlər çıxış edərək onlara göstərilən diqqətə görə dövlətimizə, həmkarlar ittifaqına minnətdarlıqlarını bildirdilər. İştirakçılara rayon təhsil şöbəsinin və Hİ Rayon Komitəsinin diplom və qiymətli hədiyyələri təqdim olundu. Sonra şəhid müəllim Famil Əhmədzadənin ev muzeyi ziyarət olundu. Onun ailəsi ilə xatirə şəkilləri çəkdirildi.**



# Xidmətləri unudulmur

*gənclərimizin vətənpərvərlik ruhunda formalaşmasında müəllimlərimizin rolu danılmazdır*

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki məktəblərdə çalışan təhsil işçiləri təltif edilib. Bildirilib ki, uzunmüddətli fəaliyyətinə görə çalışmanın yaş həddinə çatan əmək müqaviləsinə xitam verilmiş məktəb rəhbərləri və 2021-ci ildə yubileyi olan direktor müavinlərinə BŞTİ-nin Həmkarlar İttifaqı Komitəsi tərəfindən Fəxri Fərman və hədiyyələr təqdim olunub.**

Təltifetmə mərasimində BŞTİ-nin müvafiq struktur bölmə rəhbərləri, İdarənin Həmkarlar İttifaqı Komitəsinin sədri, məktəb rəhbərləri və direktor müavinləri iştirak ediblər.

Tədbirdə respublikamızın intellektual potensialının gücləndirilməsi yolunda yorulmadan fəaliyyət göstərən müəllimlərin əməyindən, xidmətlərindən söhbət açılıb. Bildirilib ki, şanlı Zəfərimizin qazanılmasında böyük qəhrəmanlıq göstərən əsgərlərimizin vətənpərvərlik ruhunda formalaşmasında valideynləri ilə bərabər müəllimlərin də rolu danılmazdır.

**Çıxış edən məktəb rəhbərləri və direktor müavinləri ölkəmizin gələcək inkişafı üçün yüksək təhsilli və savadlı gənclər yetişdirmək yolunda bundan sonra da əllərindən gələni əsirgəməyəcəklərini söyləyiblər.**

# Ölməzlik zirvəsinə gedən 44 günlük yol

*gənclərimiz bu yolu qət etməyi bacardılar*



**Oktyabrın 8-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) rektoru, professor Gülçöhrə Məmmədova 44 günlük Vətən müharibəsinin iştirakçısı olan qazi tələbələrlə görüşüb. Görüşdə tədris işləri üzrə prorektor Akif Qasımov, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Bayram Aslanov da iştirak ediblər.**

Rektor Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi, həmçinin Azərbaycan əsgərinin gücü, peşəkarlığı, şücaəti, qanı və canı hesabına 30 ilə yaxın düşmən tapdağı altında qalmış torpaqlarımızın azad edilməsinin, şanlı Qələbəmizin ildönümü münasibətilə qazi tələbələri təbrik edib, onlarla görüşdən çox məmnun olduğunu dilə gətirib. O, qələbə hissini xalqımıza yaşadan igidlərimizə minnətdarlığını bildirib, şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın ölməzlik qazandıqlarını, bütün ömrümüz boyu onlara borclu olduğumuzu vurğulayıb. Vətənin azadlığı uğrunda döyüşən hər bir qəhrəman oğlumuzla fəxr etdiyimizi deyən rektor şəhidlərimizə Allahdan rəhmət diləyib, qazilərimizə cansağlığı arzulayıb. O, müharibənin keçdiyi ərazilərin relyefinin mürəkkəbliyinə və çətinliyinə baxmayaraq, şəhidlərimizin, qazilərimizin, əsgərlərimizin cəsarəti və rəşadəti hesabına bu gün Azərbaycan bayrağının işğaldan azad olunmuş torpaqlarda dalğalandığını qürurla söyləyib.

Görüşdə qazi tələbələr Orxan Məmmədzadə (Nəqliyyat fakültəsi), Samid İbadzadə (İnşaat texnologiya fakültəsi) və Fariz Əzizov (İnşaat fakültəsi) Vətən müharibəsi günlərində keçdikləri döyüş yolundan, Azərbaycan Ordusunun şanlı Zəfərindən və Vətən uğrunda canlarından keçən şəhidlərin qorxmazlığından, mərdliyindən danışıb, şəhidlik zirvəsinə ucalan döyüş yoldaşlarına rəhmət, sağlamlığını itirən qazilərə şəfa diləyiblər.

**Rektor qazi tələbələrin vəziyyəti ilə maraqlanıb, problemlərini dinləyib, onlara hər cür dəstək göstəriləcəyini diqqətə çatdırıb. Qeyd edib ki, kəsiri olan qazi tələbələr üçün alt dərslər pulsuz olacaq.**

# "Tarix yazan təhsil işçiləri"



**Azərbaycan tarixinə Vətən müharibəsinin başlanğıcı kimi yazılan 27 sentyabr Yardımlı rayonunda da bir sıra silsilə tədbirlərlə qeyd olundu. Qəhrəman şəhidlərimizin xatirələrinə inşa edilmiş bulaqlar, qəbirüstü abidələr rayon sakinlərinin ziyarətgahına çevrildi. İttifaq üzvü, rayonun Anzov kənd tam orta məktəbinin müəllimi Malik Balaşovun "Tarix yazan təhsil işçiləri" adlı kitabının təqdimatı keçirildi. Kitabda Vətən müharibəsində şəhid olan, qazi kimi qayıdıb öz işinin başına dönən Yardımlı gənclərinin döyüş yolu, cəbhəyə fasiləsiz yardımlar çatdıran təhsil işçiləri haqqında məlumatlar əksini tapmışdır.**

Kitabda həmçinin Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Yardımlı Rayon Komitəsinin təşəbbüsü ilə müharibə dövründə cəbhə bölgəsinə səfərlərin təşkil edilməsi, əsgər və zabitlərimizə isti paltar, ərzaq və siqaret, ilk tibbi yardım üçün vasitələr dolu bağlamaların birbaşa səngərlərə çatdırılması barədə də materiallar dərc olunub.

Pandemiya dövründə təhsil şöbəsinin və rayon komitəsinin əməkdaşları ilə birlikdə aztəminatlı ailələrə, müharibədə olan ittifaq üzvlərinin ailələrinə ərzaq və tibbi gigiyenik vasitələrin çatdırılmasına da kitabda geniş yer ayrılmışdır.

**Rayon komitəsi olaraq, Vətən torpaqları uğrunda döyüşlərdə sağlamlığını itirən, sağlam qayıdıb öz işinin başına dönən ittifaq üzvlərinin, şəhid olanların ailələrinin maddi vəziyyəti və sosial rifahı daim diqqət və qayğımızla əhatə olunmaqdadır.**

# "Araz Vadisi İqtisadi Zonası"

## bu layihənin gələcək strateji əhəmiyyəti olduqca böyükdür

**Prezident İlham Əliyev oktyabrın 4-də Cəbrayılda "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının və sair mühüm obyektlərin təməllərini qoyub. Bu obyektlərin bölgənin iqtisadi inkişafına hansı töhfələri olacaq? Bu sualla millət vəkili Vüqar Bayramova və iqtisadçı Elmir Səfərliyə müraciət etdik.**

**V.Bayramov dedi ki, torpaqlarımız işğaldan azad edildikdən sonra sənaye potensiallarının reallaşdırılması, xüsusən həmin ərazilərdə sənaye parklarının yaradılması prioritet məsələlərdən hesab olunur. Cəbrayılda yeni sənaye parkının yaradılması Şərqi Zəngəzur iqtisadi rayonunun kommunikasiya, eləcə də tranzit imkanlarının artması ilə bağlıdır. Nəzərə alsaq ki, Zəngəzur dəhlizi istifadəyə verildikdən sonra Şərqi Zəngəzur və bütövlükdə Azərbaycanın Qərb hissəsi Naxçıvan Muxtar Respublikası ilə quru yol vasitəsilə birləşmək imkanı qazanacaq. Digər tərəfdən isə, Xudafərində gömrük məntəqəsinin fəaliyyətə başlayacağı gözlənilir. Bu da bir tərəfdən həmin ərazilərdə istehsal edilən məhsullar üçün yeni ixrac imkanları deməkdir. Cəbrayılın, eləcə də Şərqi Zəngəzur iqtisadi rayonu ərazisinə daxil olan rayonların təbii ehtiyatları kifayət qədər böyükdür. Bu da, təbii ki, sənaye məhsullarının istehsalı üçün geniş imkanlar yaradır. Sənaye Parkının yaradılması sənayeləşmə siyasətidir və işğaldan azad olunmuş ərazilərimizdə iqtisadiyyatın bərpa prosesinin bir elementidir. İşğaldan azad edilmiş ərazilərimizin iqtisadi inkişafı üçün yeni stimullar yaratmaqla həmin ərazilərimizdə istehsal edilən məhsulların daha geniş bazarlara ixracına imkan yaradır.**



E.Səfərli isə dedi ki, Şərqi Zəngəzur bölgəsinin xüsusi əlverişli coğrafi mövqeyi, sosial-iqtisadi inkişaf imkanları və eləcə də digər işğaldan azad edilmiş rayonlarla logistik əlaqəyə malik olması bu layihənin zərurətini ortaya qoyur. Sənaye parkının yaradılması, sadəcə, regionun deyil, eləcə də ətraf rayonların uzunmüddətli sosial-iqtisadi inkişaf istiqamətlərini, müxtəlif sahələr üzrə müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılmasını, sənaye potensialının inkişaf etdirilməsini ön plana çıxarır. Azərbaycanda bu kimi sənaye parklarının yaradılması, sahibkarlığın, özəl sektorun və xüsusilə də qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər, icra olunan dövlət proqramları nəticəsində yeni zavod, fabrik və istehsal müəssisələrinin yaradılması ölkənin iqtisadi potensialını gücləndirir, iqtisadi rifahın formalaşmasına təkan verir, işsizlik dərəcəsinin azaldılmasına təsir göstərir.

**İqtisadçı onu da qeyd etdi ki, bu layihənin gələcək strateji əhəmiyyəti olduqca böyükdür. İlkin olaraq Sənaye Parkının yaradılması regionda digər iqtisadi layihələrin həyata keçirilməsi üçün böyük motivasiya rolunu oynayacaqdır. Çalışmalıyıq ki, regionun iqtisadi bərpası və eləcə də müxtəlif sektorlar üzrə yerli və xarici investisiyalar cəlb edərək prosesləri daha sürətli həyata keçirək.**

Gülöyşə MƏMMƏDLİ

# Qara qızılın qiymət artımı

## faydalı və ziyanlı tərəfləri



**Avropa birjalarındakı son rəqəmlərə görə "AzəriLayt" markalı neftin bir barelinin qiyməti 85,15 dollara qədər yüksəlib. Bu da əvvəlki göstəricidən 1,59 dollar çoxdur. Təbii qazın qiyməti isə 1600 dollar həddini keçib. Bu gün beynəlxalq birjalarda qazın min kubmetri 1606 dollara satılıb.**

İqtisadçı-ekspert Eldəniz Əmirova görə, Azərbaycan iqtisadiyyatı neft və qazdan kifayət qədər asılı vəziyyətdə olduğu üçün bu artım ölkə büdcəsinə təsirində özünü göstərəcək: "Qiymət artımının səbəbinə gəldikdə isə, birincisi, pandemiya dövründə geriləmiş iqtisadiyyatlar postpandemiya dövründə sürətlə bərpa olmağa başlayır. İkincisi isə, "OPEC plus" ölkələrinin sonuncu görüşündə hasilat həcmlərinə qoyulan məhdudiyyətlərin hələ də qalmasına qərar verilməsidir. Belə ki, neft-qaz sahəsində xüsusi çəkisi olan ölkələr neftə olan tələbatın azalması səbəbindən pandemiya dövründə qərar qəbul etmişdilər: gündəlik hasilat həcmini azaltmaqla neftin bazara çıxışı məhdudlaşdırılmış və bu yolla da qiymətin qalxmasını strateji olaraq qarşıya məqsəd qoymuşdular. Bu addım kifayət qədər özünü göstərə bilmiş, neft və qazın qiymətinin hazırkı vəziyyətə qalxmasına gətirib çıxarmışdır".

**Ekspert onu da dedi ki, 2021-ci ildə Azərbaycan büdcəsi üçün neftin qiyməti 40 dollar nəzərdə tutulmuşdur. Hazırda isə 2 dəfədən də artıq qiymətə satılır. Bu isə, təbii olaraq, əlavə gəlirlərin daxil olmasına, əhalinin sosial rifah halının yüksəldilməsinə, eyni zamanda işğaldan azad olunmuş ərazilərin bərpasında Azərbaycan üçün əlavə maliyyə imkanlarının yaradılmasına töhfə vermiş olacaqdır.**

E.Əmirov bildirdi ki, neft və qaz qiymətlərinin qalxmasının mənfi tərəfləri də var. Ölkədə inflyasiyanın artmasına səbəb olacaq.

İqtisadçı-ekspert Natiq Cəfərli də məsələyə münasibət bildirdi. Dedi ki, Azərbaycanın neft-qaz ixracatçısı olduğunu və əsas gəlirlərinin yanacaq sektorundan, yəni təbii resurslardan əldə etdiyini nəzərə alsaq, dünya bazarlarında neftin və qazın qiymətinin qalxması ölkəmiz üçün pozitiv xəbərdir. Bu il üçün nəzərdə tutulan valyuta daxilolmalarından daha çox qazanc olacağı nəzərdə tutulur. Çünki cari il üçün Neft Fondunun büdcəsi təsdiqlənərkən neftin qiyməti indiki qiymətdən iki dəfə aşağı götürülmüşdür: "İndi isə neft artıq dünya birjalarında 82-83 dollara satılır. Nəzərə alsaq ki, Neft Fondu da büdcənin, sosial layihələrin formalaşmasında əsas donor, əsas mənbədir, deməli, ələvə hər qazanc, hər qiymət artımı Neft Fonduna daxilolmalara təsir göstərəcək.

**Qazın qiymət artımına gəldikdə isə, bu, bir az fərqlidir. Belə ki, Azərbaycan qazı uzunmüddətli kontraktlarla satılır deyə gündəlik qiymət dəyişimi bu sahəyə birbaşa təsir göstərmir. Ancaq düşünürəm ki, neftin qiymətinin artması qaz ixracı üçün bağlanan kontraktlarda da dəyişiklik yaradacaq və gələn ildən Azərbaycanın qaz satışından əldə etdiyi gəlirlər də yüksələcək. Bu da ölkənin gəlirlərinin artması deməkdir. Deməli, ölkənin gəlirləri artırsa, sosial məsələlərə də daha çox vəsait artımı imkanları olur. Ancaq, təəssüf ki, gələn il üçün sosial rifahın yaxşılaşdırılması istiqamətində kəskin artım gözlənilmir. Ən yaxşı halda orta nominal əməkhaqqının artım tempinə uyğun olaraq indeksləşmə olacaq ki, bu da 3-4 faiz civarında mümkündür. Düşünürəm ki, parlament tərəfindən də büdcə ilə bağlı məsələ müzakirəyə çıxarılarkən sosial müdafiə xərclərinin artırılması istiqamətində təkliflər olunmalı və bu yöndə işlər görülməlidir".**

Aliyə SƏMƏDOVA

# "Dünya Azərbaycana

## bu gənclərin gözü ilə baxacaq"



Anar İsgəndərov

**Prezident İlham Əliyev "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncamda deyilir: "Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş xaricdə təhsil ənənəsi Azərbaycan müstəqillik qazandıqdan sonra da uğurla davam etdirilmişdir. Postpandemiya və yeni strateji dövrün çağırışları, həmçinin milli inkişaf məqsədlərimiz nəzərə alınmaqla, ölkənin rəqabət və inkişaf sahəsində sürətlə irəliləməsi üçün yüksək intellekt cəmiyyətin əsas güc mənbəyinə çevrilməli, yenilikçi təbəqənin iqtisadi fəallıq və idarəçilikdə rolu möhkəmlənməlidir. Bu məqsədlə Azərbaycan gənclərinin ehtiyac duyulan istiqamətlər üzrə qabaqcıl xarici ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində təhsil alması davamlı olmalıdır".**

**Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü, millət vəkili Anar İsgəndərov mövzuya münasibət bildirdi. Dedi ki, bu, təqdirəlayiq bir hadisədir və birmənalı olaraq təqdir olunmalıdır. Hələ vaxtilə sovet dönəmində ümumili liderimiz Heydər Əliyev azərbaycanlı gəncləri SSRİ -nin ən nüfuzlu ali məktəblərinə göndərməyə təşəbbüs göstərmiş və uğur qazanmışdı. O zaman gəncləri SSRİ-dən kənara təhsil almaq üçün göndərmək mümkün deyildi. Mümkün olmayanı o, şəxsi nüfuzundan istifadə etməklə mümkün etdi. Öz şəxsi nüfuzundan istifadə edərək SSRİ-nin ən tanınmış ali məktəblərinə hər il minlərlə azərbaycanlı tələbə göndərirdi. Bu ənənə ölkə Prezidenti İlham Əliyev tərəfindən də davam etdirildi. Azərbaycanlı gənclər artıq daha geniş coğrafi miqyasda dünyanın ayrı-ayrı universitetlərində təhsilalma şansı qazandı. Hesab edirəm ki, bu proqram digər bir aspektdən də ölkəmiz üçün faydalıdır. Hər bir gənc xarici ölkələrdə Azərbaycan Respublikasının mədəniyyətinin, əxlaqının, milli keyfiyyətlərinin canlı timsalıdır. Azərbaycan həqiqətlərinin carçısıdır. Azərbaycanın haqq işini, başımıza gətirilən bəlaları dünyaya çatdırırlar.**

Millət vəkili qeyd etdi ki, əgər xaricdə təhsil alan min nəfərdən iki yüz nəfəri orda qalırsa, bu bizi qorxutmamalıdır. Onların ölkəmizə geri qayıtmaması Azərbaycanın yenə də lehinədir. Bizim üçün ən böyük uğur odur ki, dünyanın harasında olursa-olsun, azərbaycanlı kimi ölkəmizi təmsil etsinlər. Biz cəmi 30 ildir ki, müstəqil dövlət kimi fəaliyyət göstəririk və bizimlə bağlı dünyanın məlumatı azdır. Bu, Qarabağ problemində də özünü göstərdi. Dövlət başçısı bunu da nəzərə alaraq, yenidən sərəncam imzaladı ki, azərbaycanlı gənclərin xaricdə təhsil alması davamlı olmalıdır. Bir təhsil işçisi kimi, mən əminəm ki, elə bu gənclərin köməyi ilə ölkəmiz gələcəkdə də dünyanın ən ədalətli və demokratik bir dövlət olmasını dünyaya bəyan edəcək və dünya Azərbaycana o gənclərin gözü ilə baxacaq.

**Təhsil Xidmətləri Araşdırma Mərkəzinin rəhbəri, təhsil eksperti Kamran Əsədov isə qeyd etdi ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra rəqabətədavamlı və dayanıqlı iqtisadiyyatın formalaşması üçün mütləq xarici ölkələrdə, xüsusən nüfuzlu universitetlərdə əmək bazarında tələb olunan ixtisaslarda təhsil alanlara ehtiyac var idi: "2007-2015-ci illərdə xaricdə təhsil proqramı ölkə Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmişdi və nəzərdə tutulmuşdu ki, 5 min azərbaycanlı gənc xarici ölkələrdə təhsil almağa getməlidir. Amma bu proqram çərçivəsində 5 min adam nəzərdə tutulsa da, 2500 nəfər göndərildi. Onların sonuncusu 2022- ci ildə təhsilini başa vuracaq. Ümumilikdə bu proqrama 90 milyon manat vəsait ayrılmışdı".**

**Nəyə görə layihə dayandı?** sualımıza cavab olaraq həmsöhbətim bildirdi ki, artıq bir nəslin, xaricdə təhsil almış şəxslərin əmək bazarına nə dərəcədə effektiv olduğunu yoxlayıb öyrənməliydik. Dövlət kifayət qədər vəsait sərf etmişdi və bunun həqiqətən də faydalı, yararlı olduğunu görməliydik. Hesab edirəm ki, nəticə ürəkaçan oldu. Hazırda



Kamran Əsədov

təhsil, kənd təsərrüfatı və sairə digər nazirliklərdə, universitetlərdə, mərkəzlərdə proqram çərçivəsində xarici universitetlərdə oxuyub gəlmiş kifayət qədər vətəndaşlarımız var. Onların cüzi bir hissəsi, orda daha perspektivli şərtlərlə işlərə cəlb edilənlər, geri qayıtmayıb. Proqram yenidən ona görə başladı ki, ölkədə pandemiya dövründə xüsusən informasiya texnologiyaları, informasiya təhlükəsizliyi, qida təhlükəsizliyi, səhiyyə sistemində ciddi kadrlara ehtiyac yarandığını müşahidə etdik.

***- Bu yeni proqramın 2007-2015-ci illərdəki layihədən fərqi nə olacaq?***

**-Yeni proqramda diqqət daha çox magistratura və doktoranturaya yetiriləcək. Ona görə ki, müddəti azdır. Eyni zamanda xərclər də bakalavrla müqayisədə daha aşağıdır. Məsələn, bakalavr üçün nüfuzlu universitetlərdə 4 illik təhsil 48-50 min dollara başa gəlirsə, 2 illik magistr və doktoranturada bu rəqəm 10-15 min dollar civarındadır. Pandemiyanın vurduğu zərərlərin aradan qaldırılması, ölkədə xidmət sektorunun keyfiyyətli və əlçatan olması üçün nüfuzlu universitetlərdə təhsil almış yeni nəsil gənclərə ehtiyac var.**

***-Əvvəlki proqramla müqayisədə nələrin dəyişməsini istərdiniz?***

- İstərdim ki, bu məsələdə ötən illərdəki müəyyən qeyri-şəffaflıq aradan götürülsün. Bəzi seçimlərə kənar müdaxilələr olurdu və nəticədə obyektivliyə xələl gəlirdi. İndi hesab edirəm ki, bu, təkcə Təhsil Nazirliyi tərəfindən deyil, digər müstəqil qurumlar və ekspertlər tərəfindən yoxlanılıb seçildikdən sonra gənclərimiz xarici ölkələrə göndəriləcək və nəticə daha qənaətbəxş olacaq.

***-Seçim edərkən əsas diqqət nəyə yönəldilməlidir?***

**- Bəli, qeyd edim ki, seçim edərkən diqqəti təkcə nüfuzlu universitetlərə yox, eyni zamanda ölkədə əmək bazarında ehtiyac olan nüfuzlu ixtisaslar üzrə kadr hazırlığına yönəltək lazım olacaq.**

Əsli TELMANQIZI

# Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan www.44days.info portalının təqdimatı olub

**Oktyabrın 13-də Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan www.44days.info portalının təqdimatı olub.**




Təqdimatda çıxış edən Heydər Əliyev Fondunun şöbə müdiri Cəmil Əliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycanın qürur tarixini yazdığını bildirib. Qeyd edib ki, təqdim olunan səkkiz bölmədən ibarət resurs isə 44 günlük Vətən müharibəsinin salnaməsini Azərbaycan, rus və ingilis dillərində izləyicilərə çatdırır.

**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətləri, dövlətimizin başçısının müxtəlif beynəlxalq media qurumlarına və xəbər agentliklərinə müsahibələri, tvitləri, videokonfransları, onlayn görüşləri, müxtəlif ölkələrin prezidentləri və rəsmiləri ilə telefon danışıqları, yerli və beynəlxalq qurumların, müxtəlif ölkələrin və təşkilatların nümayəndə heyətləri ilə keçirilən qəbullar, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi açıqlamaları, xarici mediada Vətən müharibəsi ilə bağlı dərc edilən məqalələr, 44 günlük müharibə zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki əhalisinə qarşı hücumlarla bağlı məlumatlar portalda əksini tapıb.**

Belə bir resursun yaradılmasının vacibliyini vurğulayan saytın işçi qrupunun üzvü Şamxal Əbilov deyib: "Vətən müharibəsində qazandığımız möhtəşəm Qələbəyə görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə və qalib Azərbaycan Ordusuna minnətdarlıq edir, şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirik".

Təqdimat zamanı bildirilib ki, portalın əsas səhifəsində Vətən müharibəsinin hər günü və Ermənistanın kapitulyasiyasını ifadə edən üçtərəfli Bəyanat yer alıb. Bundan başqa, müharibənin hər günü ayrıca bölmələrdə təqdim edilir, xarici mediada həmin günə aid dərc olunan məqalələr və analitiklərin proqnozları mətn və linklərdə əks olunur.

**Portalın "44 günlük müharibəyə gedən yol" bölməsində 2020-ci ilin iyul hadisələri xronoloji ardıcıllıqla təqdim edilib və "Müharibə niyə baş verdi?" başlıqlı təhlil verilib. 2020-ci il iyulun 14-də Ordumuza dəstək məqsədilə Bakının mərkəzində keçirilən yürüşün fotoları və xarici mediada bu hadisələrlə bağlı dərc olunan məqalələr mətn və linklərlə təqdim edilib.**

Azərbaycan Ordusunun Vətən müharibəsindəki tarixi Qələbəsi münasibətilə Bakıda keçirilən hərbi paraddan videogörüntülər, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş ərazilərə etdiyi səfərlərin xronoloji ardıcıllığı, o cümlədən foto və video materiallar da sayt izləyicilərinə təqdim edilir.

**Bundan əlavə, portalda Qarabağ münaqişəsinin tarixi, hüquqi və siyasi aspektləri, işğal olunan ərazilərdə mədəni irs və təbii sərvətlərimizə qarşı ermənilər tərəfindən törədilmiş cinayətlər, Xocalı soyqırımı ilə bağlı gerçəkləri özündə əks etdirən baza yaradılıb.**



# Əməyin təhlükəsizliyi və gigiyenasına dair bir sıra qaydalar

**Hökumətlərin, işəgötürənlər və işçilərin təşkilatlarının mütəxəssisləri tekstil, tikiş, dəri və ayaqqabı məmulatlarında (bu sahədə ilk dəfə olaraq) əməyin təhlükəsizliyi və gigiyenasına dair bir sıra qaydalar qəbul etmişlər.**

**Beynəlxalq əmək standartları və digər sahə direktivlərinə əsaslanan kodeks bütün əsas təhlükə və risklərin necə aradan qaldırılması, azaldılması və nəzarət edilməsi barədə ətraflı və praktiki məsləhətlər verir. Bura kimyəvi maddələr, erqonomik və fiziki təhlükələr, alətlər, maşın və avadanlıqlar, həmçinin tikinti və yanğın təhlükəsizliyi daxildir.**

İnkişaf etməkdə olan və iqtisadiyyatı yeni formalaşan ölkələr üçün xüsusi əhəmiyyət kəsb edəcək yeni məcəllədən bütün dünyada 60 milyondan çox işçi faydalanacaq.

**Məcəlləni qəbul edən ekspert şurasının sədri Yukka Takala** **vurğulayıb ki, son 50 ili tənzimləmə, icra və xüsusən də əməyin təhlükəsizliyi və gigiyenasının təşviqinə sərf etdikdən sonra deyə bilərəm ki, BƏT -in bu praktiki qaydalarının qəbulu tekstil, geyim, dəri və ayaqqabı sənayesində böyük bir mərhələdir.**

"Biz zəmanət vermək istəyirik ki, Rana Plaza bir daha heç vaxt təkrarlanmayacaq", - deyə **İdarə Heyəti sədrinin işçi məsələləri üzrə müavini Kamrul Anam** bildirib. O deyib ki, əgər hər kəs bu məcəllənin müddəalarını həyata keçirmək öhdəliyini öz üzərinə götürsə, heç bir işçinin bir daha tikiş fabrikində öz həyatını yenidən risk altında qoymamağa təminat verə bilərik.

Toxuculuq, tikiş, dəri və ayaqqabı sənayesi COVID-19 pandemiyası zamanı çox ziyan çəkdi. Minlərlə müəssisə istehsalı dayandırmaq məcburiyyətində qaldı və nəticədə milyonlarla işçi dolanışıq vasitələrindən məhrum oldu.

**İdarə Heyəti sədrinin müavini Con Bekket** **bildirib ki, əməyin mühafizəsi və təhlükəsizliyi bütün dünyada işəgötürənlər üçün prioritetdir. Əminik ki, bu qaydalar toplusu işəgötürənlər, işçilər və hökumətlər üçün tekstil, geyim, dəri və ayaqqabı sənayesində əməyin təhlükəsizliyi və gigiyenası mədəniyyətini təbliğ etmək məqsədilə birlikdə çalışmalarından ötrü praktiki bir əsas olacaqdır.**

Hər il dünyada təxminən 2,8 milyon işçi müxtəlif sektorlarda istehsal xəsarətləri və xəstəliklər nəticəsində dünyasını dəyişir. Daha 160 milyon işçi peşə xəstəliklərindən əziyyət çəkir və 374 milyon işçi müxtəlif dərəcəli xəsarət alır. Dünya Ümumi Daxili Məhsulunun (ÜDM) dörd faizindən çoxu istehsal xəsarətləri və xəstəliklər nəticəsində itirilir.

**BƏT-in sahə siyasəti departamentinin direktoru Alett van Leur** **əlavə edib ki, COVID-19 pandemiyası bizə, daha yaxşı irəliləmək istəyiriksə, təhlükəsizliyin və sağlamlığın, həmçinin insana yönəlmiş yanaşmanın nə qədər vacib olduğunu xatırlatdı. Ümid edirəm ki, bu sahələr bərpa olunduqca, yeni qaydalar toplusu milli və ya korporativ əməyin mühafizəsinin idarə edilməsi sistemlərinin işlənib hazırlanması üçün əsas olacaq və bu sektorda və onun hüdudlarından kənarda əmək şəraitinin ümumi yaxşılaşdırılmasına öz töhfəsini verəcəkdir.**

# Bu tələblər səhiyyə və təhsil sahəsində irəliləyişi pozur

**Beynəlxalq Valyuta Fondunun (BVF) qlobal cənubda hökumət xərclərini azaltma tövsiyəsi yalnız 15 ölkədə ictimai sektorun əməkhaqqı büdcəsindən təxminən 10 milyard dolları (ABŞ) sildi. Bu, pandemiya dövründə belə mütəxəssislərə (müəllimlər, tibb bacıları və həkimlər) ehtiyac olmasına baxmayaraq, 3 milyondan çox vacib iş yerinin itirilməsinə bərabərdir.**



Araşdırmalar göstərir ki, BVF əməkhaqqı qanunvericiliyinin məhdudlaşdırılmasının müvəqqəti bir tədbir olduğunu iddia etsə də, tədqiq olunmuş 15 ölkədə ictimai sektorda əməkhaqqı hesablarını üç il və ya daha çox müddətə azaltmaq və ya dondurmaq məsləhət görülüb.

**"Sərt iqtisadi tədbirlərə qarşı cəmiyyət" adlı hesabatda ictimai sektorda çalışanların əməyinin ödənilməsi üçün istifadə olunan büdcənin azaldılmasının səhiyyə, təhsil və gender bərabərliyi sahəsində irəliləyişlərin pozulmasına, COVID-19-a reaksiya tədbirlərinin və iqlim böhranının aradan qaldırılması üçün lazım olan dəyişikliklərin qarşısının alınmasına necə nail olduğu göstərilmişdir.**

**İctimai Xidmət İnternasionalının (PSİ) Baş katibi Roza Pavanelli** bildirib ki, bu pandemiya BVF-nin qənaət tədbirlərinin ictimai xidmətlər üçün fəlakətli nəticələrini ortaya qoydu. Kadr çatışmazlığı və dövlət investisiyalarının olmaması sadə işçiləri təhlükəli vəziyyətlərə sövq edir. Özünəinamı bərpa etmək üçün BVF-nin qənaətdən ictimai xidmətlərimizi gücləndirən və onları təmin edən işçiləri dəstəkləyən siyasətlərə qədər dərin bir institusional dəyişiklik etməsinin vaxtıdır.

Ölkələrin iqtisadiyyatını illərlə formalaşdıran siyasət məsləhətləri verən IV maddə hesabatları da daxil olmaqla, BVF sənədlərinin təhlili, ictimai məşğulluq maliyyələşdirilməsini azaltmaq üçün məlumatların ölkə səviyyəsində necə sui-istifadə edildiyini ortaya qoyur. ÜDM-in faizi olaraq ictimai sektorda əməkhaqqı ilə bağlı çox fərqli xərcləri olan ölkələrə, ÜDM -in 17 faizi olan Zimbabvedən, ÜDM -in yalnız 1,8 faizi ilə Nigeriyaya qədər endirilməsinin təşviq edildiyi məlum oldu. Bu böyük dəyişikliklərə baxmayaraq, BVF-nin tövsiyələri ardıcıl olaraq xərcləri azaltmaqdır.

**BVF -nin nəzərdən keçirdiyi 69 sənəddən yalnız Liberiya təhsil və səhiyyə sektorunda mövcud işçi çatışmazlığının hesablamalarını özündə cəmləşdirdi, baxmayaraq ki, bu cür məlumatlar hökumətin məşğulluğa ayırdığı maliyyə səviyyəsini müəyyən etmək üçün çox vacibdir.**

Liberiyanın IV maddə üzrə hesabatı göstərdi ki, ölkədə səhiyyə mütəxəssislərinin 10 min nəfərə nisbəti Dünya Səhiyyə Təşkilatının 41 nəfərə bərabər hədəf göstəricisi ilə müqayisədə cəmi beş nəfər təşkil edir. Bununla belə, bir sıra sektorlarda daha çox dövlət qulluqçusunun tələbatına baxmayaraq, Liberiyada hələ də əməkhaqqı fondunun ictimai sektorda 1,1 faiz bənd aşağı salınması tövsiyə olunurdu.

Hesabat Dünya Bankının illik "Doing Business" hesabatını, vətəndaş cəmiyyətinin dəyişiklik tələbləri və əhəmiyyətli daxili qərəz və məlumat manipulyasiyasını ortaya qoyan kritik bir araşdırmanın ardından ləğv etməsindən bir neçə həftə sonra yayımlandı.

**"ActionAid" və tərəfdaşlarının apardığı araşdırmalar hər iki qurumda ictimai məşğulluğun və xidmətlərin inkişaf və böyümədə rolunu yenidən vurğulayan yeni bir siyasət istiqamətinə doğru islahatlara ehtiyac olduğunu daha da önə çəkir.**

# Bizə ədalətli vergi lazımdır



**Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası (BHİK) 136 ölkənin minimum vergi dərəcəsi 15 faiz olan qlobal vergi islahatı müqaviləsini alqışlayıb. Bildirilib ki, bu, böyük şirkətlərin ədalətli paylarını ödəmələri üçün sistem dəyişikliyinin başlanğıcı olmalıdır.**

**BHİK-in Baş katibi Şaran Barrou** deyib: "Biz çoxdan gözlənilən bu nümunəni alqışlayırıq. O, transmilli şirkətlərin öz ədalətli vergilərinin ödənilməsini təmin etməklə daha çox səy göstərilməsi üçün başlanğıc meydançaya çevrilməlidir.

Minimum 15 faiz dərəcəsi çox aşağıdır, bu, yarışı korporativ verginin sonuna qədər yavaşladacaq. Amma müqavilədə çoxlu boşluq da var. Ancaq indi dünyanın əksəriyyəti minimum dərəcəyə ehtiyac olduğunu qəbul edirsə, iddia etdiyimiz kimi, 25 faizdə israrlı olmalıyıq.

"G20" maliyyə nazirləri bu həftə toplantıda dünyaya lazım olan ambisiyaları nümayiş etdirməlidirlər və 15 faiz dərəcəsini artırmalıdırlar. Biz ötən iclasda dünyaya ədalətli korporativ vergitutmanın nəyə görə lazım olduğunu dəqiq izah etdik, indi növbə nazirlərindir.

**Əldə olunan nailiyyətlərlə kifayətlənməməliyik. Ölkələrin hökumətləri dünyanın ən zəngin insanlarının həddindən artıq sərvətinə vergi və maliyyə əməliyyatlarına vergi tutulması kimi məsələdə razılığa gəlməlidirlər ki, bu sektor vergi daxilolmalarına ədalətli töhfə versin.**

COVID-19 pandemiyasından sonra iqtisadi və sosial bərpaya, keyfiyyətli dövlət xidmətlərinin göstərilməsinə, bərabərsizliyin azaldılmasına və işsizlik probleminin həllinə nail olmaq üçün maliyyə şəraitinin yaradılması vaxtıdır. Bunu maliyyələşdirmək üçün bizə ədalətli korporativ vergi lazımdır.

**Beləliklə, bu, yaxşı bir başlanğıcdır, amma biz daha da irəliləməliyik. Bütün dünyada insanlar hər kəsin ədalətli və səmərəli vergi dərəcəsini ödəməsi üçün növbəti böhranı gözləməməlidirlər. İşləyən insanların əksəriyyəti 15 faizdən çox vergi ödəyirlər, niyə onlar transmilli şirkətlərin və həddindən artıq varlanmış zənginlərin ədalətli paylarını ödəməsini gözləməlidirlər?".**



# Büdcə sahəsi işçilərinin etiraz aksiyaları

**Varşavada Ümumpolşa Həmkarlar İttifaqları razılaşmasının təşkilatçılığı ilə büdcə sahəsi işçilərinin etiraz aksiyaları keçirilib. Ailə və sosial siyasət nazirliyinin binası qarşısında keçirilən aksiyalarda "Hörmət və layiqli əməkhaqqı!", "Büdcə sahəsində maaşların artırılması!" və sair şüarlar irəli sürülüb.**

Paytaxtın digər rayonlarında da piketlər olub. Büdcə sektorunda böhran misli görünməmiş həddə çatıb. Sosial sığorta fondunun, məhkəmə sisteminin, kənd təsərrüfatı sığorta fondunun, yol-nəqliyyat müfəttişliyi işçilərinin, hərbçilərin və digərlərinin məvacibləri çox aşağıdır. Onlar çox ağır şəraitdə işləməli olurlar. Təhsil sisteminin işçiləri mənasız islahatlar və əməkhaqqının artırılması haqqında yalan vədlərdən beziblər.

Paytaxtda epidemioloji xidmətlər koronavirusun yayılma təhlükəsi səbəbindən həmkarlar ittifaqlarının böyük bir nümayiş keçirməsinə icazə vermədilər. Buna görə müəllimlər 150 nəfərlik qruplara bölündülər və ayrı-ayrı yerlərdə yürüş keçirdilər. Əsas etiraz aksiyaları Milli Təhsil Nazirliyinin qarşısında baş tutdu. Narahat doğuran əsas problemlər peşəkar inkişaf, iş vaxtı, əməkhaqqı ilə bağlı idi.

**Polşa Müəllimlərinin Həmkarlar İttifaqının lideri Slavomir Bronyaj** **qeyd edib ki, bir çox təklif irəli sürülüb, amma bunların heç biri müəllimlərin iş şəraitini və gəlirlərini yaxşılaşdırmaq üçün nəzərdə tutulmayıb. Müəllimlərin həftədə iş saatlarının sayının 18-dən 22-yə qaldırmaq fikri isə mənfi nəticələrə səbəb olacaq. Yaxşı olmayan güzəranları daha da pisləşəcək.**

# İtaliya Həmkarlar İttifaqları Konfederasiyasının binasına hücum olub

**Oktyabrın 9-da İtaliya Həmkarlar İttifaqları Konfederasiyasının (CGİL) baş ofisi ifrat sağçı qruplar tərəfindən hücuma məruz qalıb. İtaliya hökuməti tərəfindən işçilərə məcburi peyvəndin tətbiq edilməsi müəyyən qrup insanların etirazına səbəb olub və onlar nümayişlərə başlayıblar. Nümayişlərin ardından insanlar həmkarlar ittifaqlarının binasına girib və dağıntılar törədiblər. Bunun ardından Romada zorakı hadisələrə rəhbərlik edən "Forza Nuova" faşist qruplaşmasının liderləri həbs edilib.**




Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Birliyi (EPSU) tərəfindən italiyalı tərəfdaşlarına həmrəylik məktubu göndərilib. **Avropa Komissarı Nikolas Şmit** baş verənlərə təəssüfləndiyini bildirib. İtaliyanın Baş naziri Mario Draqi CGİL rəhbərliyi ilə görüşmək və həmrəyliyini nümayiş etdirmək üçün Konfederasiyanın ofisini ziyarət edib. İtaliya həmkarlar ittifaqları (CGIL, CİSL və UİL) oktyabrın 16-da Romada nümayiş təşkil edəcəklər. Həmkarlar ittifaqlarının tələbi faşist təşkilatların ləğv olunmasıdır. Qeyd olunur ki, faşist qruplaşmalarının bu hücumları təkcə CGİL-ə yox, hamıya qarşıdır.




# Tətilə səbəb əmək şəraitinin pis olması və aşağı əməkhaqqıdır

**"Kaiser Permanente" konsorsiumunun 24 min tibbi işçisi tətilin keçirilməsi üçün səs verib. Tibb işçilərinin işə çıxmaması Kaliforniyada və Oreqonda tibbi xidmətlərin göstərilməsində bir sıra çətinliklərə səbəb olacaq. İşçilərin bu addımı atmasına səbəb əmək şəraitinin pis olması və aşağı əməkhaqqıdır. Lakin hər iki tərəf tətil başlamamışdan əvvəl münaqişənin nizamlanması ümidi ilə danışıqları davam etdirəcəklərini bəyan edib.**

Xatırladaq ki, oktyabrın 8-10-da keçirilən səsvermə zamanı Kaliforniyada və Oreqonda tibb işçiləri işin dayandırılmasını böyük əksəriyyətlə dəstəklədilər. Onlar firmadan iki səviyyəli əməkhaqqı və güzəştlər sistemi üzrə planlardan imtina etməyi tələb edirlər. Bu sistem yeni işçilərə daha çox təcrübəsi olan həmkarlarından az maaş ödənilməsinə və zəif tibbi sığorta proqramları ilə əhatə olunmasına imkan verir. Bundan başqa, işçilər növbəti üç il ərzində əməkhaqqının 4 faiz artırılmasını istəyirlər və işəgötürəndən daha çox tibb bacısı işə götürməyi tələb edirlər, çünki xəstəxanalarda güclü kadr çatışmazlığı müşahidə olunur. Firmanın ölkə daxilində 50 min işçisi müqavilələrinin sona çatması səbəbindən oxşar tələblər irəli sürürlər.

**Həmkarlar ittifaqlarının liderləri deyirlər ki, tətillərin lehinə daha çox səsvermə Kolorado, Corciya, Merilend, Virciniya, Vaşinqton, Havay və digər ştatlarda da ola bilər. Lakin səsvermə dərhal işin dayandırılmasına gətirib çıxarmır. Həmkarlar ittifaqı tətilin başlamasından 10 gün əvvəl "Kaiser Permanente"yə məlumat verməlidir. Həmkarlar ittifaqlarının liderləri və işəgötürənlər yaxın günlərdə danışıqlar masasında ortaq məxrəc tapılacağına ümid edirlər. Amma həmkarlar ittifaqlarının nümayəndələri tərəflərin hələ də əsas məsələlər üzrə fikir ayrılığında olduqlarını bildiriblər.**

**Səhifəni hazırladı: Azər MUSTAFAYEV**

ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

Son səhifə

CÜMƏ AXŞAMI, 14 OKTYABR 2021-Cİ İL / № 38 (1256)




## Təbrik



**Bu günlərdə Bakı şəhəri Yaşıllaşdırma Təsərrüfatı Birliyi Həmkarlar İttifaqı Komitəsinin sədri Zenfira Hüseynovanın 60 yaşı tamam olur.**

Zenfira xanım 2005-ci ildə Bakı şəhəri Yaşıllaşdırma Təsərrüfatı Birliyi Həmkarlar İttifaqı Komitəsinin sədri seçilib. İşlədiyi müddətdə nizam-intizamı, tələbkarlığı ilə fərqlənməsi ona kollektivdə böyük hörmət və nüfuz qazandırıb.

O, Yerli Sənaye və Kommunal-Məişət Müəssisələri İşçilərinin Həmkarlar İttifaqı Respublika Komitəsi Rəyasət Heyətinin üzvü, eyni zamanda Gender və Qadın Problemləri üzrə Komissiyanın sədridir.

**Z.Hüseynova həmkarlar ittifaqında uzunmüddətli fəaliyyətinə görə AHİK-in "20 illik yubiley döş nişanı"na və "Həmkarlar ittifaqında xidmətinə görə" medalına layiq görülüb. Azərbaycan həmkarlar ittifaqı hərəkatının inkişafındakı xidmətlərinə görə ölkə başçısının Sərəncamına əsasən, 2018-ci ildə "Tərəqqi" medalı ilə təltif edilib.**

Əziz həmkarımızı yubiley yaşı münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və uğurlar diləyirik.

*Yerli Sənaye və Kommunal-Məişət Müəssisələri İşçilərinin Həmkarlar İttifaqı Respublika Komitəsinin kollektivi*

## İdman

# İkinci yeri tutub




**İtaliyanın Olbia şəhərində gənc cüdoçular arasında keçirilən dünya çempionatında "Atilla" İdman Klubunun yetirməsi Turan Bayramov gümüş medal qazanıb. Çempionatda 60 kiloqram çəki dərəcəsində mübarizə aparan Azərbaycan cüdoçusu ardıcıl olaraq You-Çonq Lin (Çin Taypeyi), Merey Markhanbetov (Qazaxıstan) və Roman Valadye Pikardı (Fransa) məğlub edərək yarımfinala yüksəlib.**

Bu mərhələdə özbəkistanlı Kamoliddin Baxtıyarova qalib gələn cüdoçumuz finala vəsiqəni təmin edib. Təmsilçimiz həlledici qarşılaşmada Giorgi Sardalaşviliyə (Gürcüstan) məğlub olaraq ikinci yeri tutub.

# Cəmiyyətin samboçuları 5 medal qazanıblar

**Oktyabrın 2-də 2006-2008-ci il təvəllüdlü idmançılar arasında sambo üzrə Bakı şəhər birinciliyi keçirilib.**



Yarışda iştirak edən "Zenit" İdman Cəmiyyətinin yetirmələri Əli Əliyev (35 kq.) və Ənsar Davudov (65 kq.) birinci, Kərim Kərimli (50 kq.) ikinci, Tahir Əlizadə (42 kq.) və Ramil Cəfərli (59 kq.) üçüncü yeri tutublar. Cəmiyyətin samboçularının yarışa hazırlaşmasında və uğur qazanmalarında məşqçi-müəllim Yaqub Abdullayevin böyük rolu olub.

**Paytaxt birinciliyində fəxri yer tutan idmançılar mükafatlandırılıblar.**

## Nekroloq



**Azərbaycan həmkarlar ittifaqlarına ağır itki üz verib. Tanınmış jurnalist, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nazim İsmayıl oğlu Ağamirov 2021-ci il oktyabrın 7-də vəfat edib.**

Həyatı boyu, istər ölkə daxilində və istər müxtəlif xarici ölkələrdə, şərəfli və məsuliyyətli vəzifələrdə çalışan N.Ağamirov həmişə kollektivdə böyük nüfuz sahibi olmuş, təşəbbüskarlığı, prinsipiallığı və peşəkarlığı ilə seçilmişdir.

2009-cu ildən isə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Mətbuat və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri kimi N.Ağamirov səmərəli fəaliyyəti ilə həmkarlar ittifaqlarının həyatında dərin iz qoyub, üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirib.

**AHİK-in və üzv təşkilatların fəaliyyət istiqamətləri, gördüyü işlər, həyata keçirdiyi layihələr, təşkil etdiyi tədbirlər barədə ictimaiyyətin mütəmadi, operativ şəkildə, daha sadə və müasir üsullarla məlumatlandırılması və kütləvi informasiya vasitələrində işıqlandırılması üçün mövcud imkanlardan layiqincə istifadə etmişdir.**

N.Ağamirov fəal ictimaiyyətçi kimi AHİK-in IV və V qurultaylarının nümayəndəsi seçilmişdir. AHİK Məclisinin üzvü idi.

**N.Ağamirovun həmkarlar ittifaqlarının həyatındakı səmərəli fəaliyyəti AHİK-in rəhbərliyi tərəfindən yüksək qiymətləndirilərək "AHİK-in 25 illik" və "Azərbaycan həmkarlar ittifaqları 115 il" yubiley döş nişanlarına layiq görülmüşdür.**

Qayğıkeş dost və gözəl ailə başçısı N.Ağamirovun xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

**Allah rəhmət eləsin!**

**AHİK-in aparat işçiləri**

# Hüquq məsləhətxanası

**Bilmək istəyirəm, hərbi xidmətdə olduğum dövr, təhsil aldığım müddət mənim sığorta stajıma və pensiyaya daxil edilirmi? Ümumiyyətlə, sığorta stajı nədir və ona hansı dövrlər daxildir? Qeyd edim ki, axşam şöbəsində oxumuşam və işləmişəm.**

**Mürsəl BAXŞIYEV, Şirvan şəhəri.**

- Pensiya qanunvericiliyinə əsasən, hərbi xidmətdə olduğunuz müddət sizin sosial sığorta stajınıza daxildir. Universitetin axşam şöbəsində təhsil aldığınız müddətdə işlədiyinizə görə həmin müddət də sosial sığorta stajına daxil edilir.

Sığorta stajına daxil edilən iş və ya digər fəaliyyət müddətlərindən "Əmək pensiyaları haqqında" qanunun 21-ci maddəsində bəhs edilir.

Həmin maddəyə əsasən, qanunvericiliklə müəyyən edilmiş qaydada məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi şərtilə, mülkiyyət formasından, əmək fəaliyyətinin xarakterindən və müddətindən asılı olmayaraq, müəssisə, idarə və təşkilatlarda əmək müqaviləsi (kontraktı) əsasında işləyənlərin, hərbi qulluqçuların, eləcə də hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin, vəzifəyə seçilmiş və ya təyin edilmiş şəxslərin iş, hərbi xidmət və ya digər fəaliyyət müddətləri sığorta stajına daxil edilir.

Qeyd olunan müddətlərdən əlavə, aşağıdakı müddətlər də sığorta stajına daxil edilir:

- işçinin işəgötürən tərəfindən hesablanmış əməkhaqqına məcburi dövlət sosial sığorta haqqı ödənilən hər hansı işinin müddəti;
- yaradıcılıq ittifaqlarının və peşəkar birliklərin üzvlərinin yaradıcılıq fəaliyyətinə başladıqdan sonrakı dövr, 1991-ci il yanvarın 1-dən isə müvafiq icra hakimiyyəti orqanına məcburi dövlət sosial sığorta haqları ödədikləri müddət;
- müddətli həqiqi hərbi (alternativ) xidmət (1992-ci il yanvarın 1-dək keçmiş SSRİ-nin ərazisində müddətli həqiqi hərbi xidmət dövrü daxil olmaqla) və müvafiq icra hakimiyyəti orqanında qeydiyyatdan keçmiş özünümüdafiə dəstələrində və birləşmələrində olduğu müddət, müvafiq icra hakimiyyəti orqanlarında və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) xidmət müddəti;
- müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada hesablanan I dərəcə əlilliyi olan şəxsə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa, habelə ahıllara (yaşı 70-ə çatmış şəxslərə) qulluq edilməsi müddəti;
- işsizlikdən sığorta ödənişinin verildiyi müddət, yaxud işsizin peşə hazırlığı keçdiyi müddət;
- istehsalatda bədbəxt hadisələr və ya peşə xəstəliyi nəticəsində işləməyən I və II dərəcə əlilliyi olan şəxslərin yaşa görə əmək pensiyasının təyin edilməsi üçün yaş həddinə çatanadək pensiyada olduqları müddət;
- zabit heyəti, gizir, miçman və müddətindən artıq qulluqda olan hərbi qulluqçuların arvadlarının öz ixtisası üzrə işə düzəlmək imkanı olmadığı yerlərdə ərləri ilə yaşadıqları müddət;
- şəxsin qanunsuz tutulma, həbsdə olma və cəzaçəkmə müddətləri, eləcə də qeyri-qanuni olaraq işdən (vəzifədən) kənarlaşdırılması ilə əlaqədar işləmədiyi müddət;
- əmək qabiliyyətinin müvəqqəti itirilməsi müddəti ərzində həm işəgötürənin vəsaiti, həm də məcburi dövlət sosial sığortası vəsaitləri hesabına müavinət alındığı müddət;
- mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxslərin həmin torpaq sahəsinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məcburi dövlət sosial sığorta haqları ödədiyi müddət.
- hərbi xidmət müddəti (1992-ci il yanvarın 1-dək keçmiş SSRİ-nin ərazisində hərbi xidmət dövrü daxil olmaqla).

Qeyd edək ki, artıq əyani təhsil müddəti də pensiya təyin edilən zaman nəzərə alınır.

**İşləməklə yanaşı, doktoranturada oxuyuram. Yaxın zamanlarda fəlsəfə doktoru olmaq üçün müdafiə etməliyəm. Bilmək istəyirəm, mənə ödənişli, ya ödənişsiz hər hansı məzuniyyət düşürmü?**

**Sevda MÜRSƏLOVA, Gəncə şəhəri.**

- Əmək Məcəlləsinin 122-ci maddəsində yaradıcılıq məzuniyyətləri və onların müddətlərindən bəhs edilir. Həmin maddəyə əsasən, işəgötürənlə əmək münasibətlərində olmaqla yanaşı doktoranturada müvafiq elmi dərəcə almaq üçün təhsilini davam etdirən işçilərə dissertasiya işlərini tamamlamaq üçün ödənişli yaradıcılıq məzuniyyətləri verilə bilər.

İşləməklə yanaşı, doktoranturada təhsil alan (o cümlədən doktoranturaya daxil olmaq üçün) işçilərə hər tədris ilində 30 təqvim günü ödənişli məzuniyyət verilir.

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini tamamlamaqdan ötrü iki təqvim ayınadək ödənişli yaradıcılıq məzuniyyəti verilir. Bu yaradıcılıq məzuniyyətindən işçi müvafiq elmi şuranın qərarına uyğun olaraq ona verilən arayış əsasında istifadə edir.

Onu da qeyd etmək lazımdır ki, yaradıcılıq məzuniyyəti müddətində ödənilən əməkhaqqı işçinin vəzifəsi (peşəsi) üçün müəyyən olunmuş aylıq əməkhaqqından hesablanır.

Doktoranturada təhsil alan işçilərə, yuxarıda qeyd edilən ödənişli məzuniyyətlərdən başqa, onların yazılı ərizəsi əsasında hər iş ilində 1 təqvim ayınadək ödənişsiz məzuniyyət də verilir.

**Bəzən vətəndaşlar əllərində qanuni qüvvəyə minmiş məhkəmə qərarı ola-ola təkrar-təkrar müraciət edirlər. Dörd dəfə cavab vermişik, amma eyni məsələni təkrar yazmaqda davam edirlər. Ərizəni baxılmadan saxlaya bilərikmi?**

**Əli MƏMMƏDLİ, Sumqayıt şəhəri.**

- "Vətəndaşların müraciətləri haqqında" qanunun 8-ci maddəsində müraciətin baxılmamış saxlanılması halları göstərilmişdir. Onlardan biri müraciətdə göstərilən məsələ ilə əlaqədar məhkəmənin qanuni qüvvəyə minmiş qərarının olması, biri də vətəndaşın təkrar müraciətlərinə bir il ərzində 3 dəfə mahiyyəti üzrə əsaslandırılmış cavab verilmişsə və təkrar müraciətdə məsələnin həlli üçün yeni məlumatların olmamasıdır. Bu cür hallarda vətəndaşın müraciəti baxılmamış saxlanılmalıdır.

**Təhsilalanların sosial müdafiəsi necə təmin olunur?**

**Səma RAMAZANOVA, Bakı şəhəri.**

- "Təhsil haqqında" qanunun 35-ci maddəsinə əsasən, dövlət və bələdiyyə ümumi təhsil müəssisələrində təhsilalanlar dərsliklərlə müəyyən edilmiş qaydada dövlət hesabına təmin olunurlar.

Dövlət peşə, orta ixtisas və ali təhsil müəssisələrində təhsilalanların fəaliyyətini stimullaşdırmaq məqsədilə onlara qanunvericiliklə müəyyən edilmiş qaydada təqaüdlər, o cümlədən adlı təqaüdlər verilir və yardımlar göstərilir.

Təhsilalanlar üçün qanunvericiliyə uyğun olaraq digər sosial müdafiə tədbirləri də tətbiq edilə bilər.

Özəl təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi müəssisənin nizamnaməsi ilə tənzimlənir.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil İşçiləri Azad HİRK-in rəhbərliyi və aparat işçiləri AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri **NAZİM AĞAMİROVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK-in sədri Hikmət Osmanov və aparat işçiləri AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri **NAZİM AĞAMİROVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Səhiyyə İşçiləri HİRK-in sədri Emin Əfəndiyev və aparat işçiləri AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri **NAZİM AĞAMİROVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ-nin sədri Hüseyn Kərimov və aparat işçiləri AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri **NAZİM AĞAMİROVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri HİRK-in sədri Məhəmmədəli Salmanov və aparat işçiləri AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri **NAZİM AĞAMİROVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarova və aparat işçiləri AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri **NAZİM AĞAMİROVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Hİ Federasiyasının sədri Tofiq Quliyev və aparat işçiləri AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri **NAZİM AĞAMİROVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Milli Elmlər Akademiyasının Azad Hİ-nin sədri Habil Qurbanov AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri **NAZİM AĞAMİROVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Gömrük İşçiləri Hİ Birliyinin sədri Səfər İbrahimov və aparat işçiləri AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri **NAZİM AĞAMİROVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Təhsil İşçiləri Azad Hİ Salyan Rayon Komitəsinin sədri Yaqut Ələsgərova sahə Hİ Nərimanov Rayon Komitəsinin sədri Gülarə Hüseynova bacısı **TƏRLAN xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7688
Sifariş: 1972
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət